QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!


"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 022 (5010) **5 fevral** 2016-cı il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Prezident İlham Əliyev Londonda Xorvatiya Prezidenti Kolinda Qrabar-Kitaroviç ilə görüşüb



## Gintaras Visotskas: Qonşuların torpaqlarını tutan təcavüzkar separatçı qüvvələri dayandırmağın vaxtı yetişib

Bax 2

*Litvanın www.slaptai.lt portalında məşhur jurnalist, həmin portalın rəhbəri Gintaras Visotskasın "Avropada dondurulmuş münaqişələrə üstünlük verənlər çoxdur" sərlövhəli məqaləsi dərc edilib. Müəllif Gürcüstan, Ukrayna və Baltikyanı ölkələrdə yaranmış vəziyyəti təhlil edərək vurğulayır ki...*

## Yeni islahatlar sahibkar-dövlət orqanı münasibətlərində yaranan mübahisələrin çevik həllinə imkan verəcək

Bax 4

*Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən, Prezidentin İqtisadi İslahatlar üzrə Köməkçisi Xidmətindən AZƏRTAC-a verilən açıqlamada bildirilir ki, sahibkarlığın inkişafı, əlverişli biznes mühitinin yaradılması məqsədilə əsaslı şəkildə islahatların aparılması xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən müəyyən edilmiş və hazırda Azərbaycan...*

## Yaşar Aydəmirov: "Azərbaycanın sərəncamında olan hərbi texnika Ermənistandakından qat-qat üstündür"

Bax 7

*Ehtiyatda olan general-leytenant, keçmiş korpus komandiri Yaşar Aydəmirov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zamanı dinc azərbaycanlı əhaliyə qarşı döyüşlərdə qaniçənliyi, amansızlığı ilə "şöhrət" tapmış "Kommandos" ləqəbli Ter-Tadevosyanın bu günlərdə erməni...*


Azərbaycan Prezidentinin təşəbbüsü ilə struktur islahatları davam etdirilir


4

Zeynal Nağdəliyev: "Xalqla hakimiyyətin sıx birliyi Azərbaycanın uğurlarının rəhnidir"


5

Siyavuş Novruzov: "Əli Kərimlinin yalanlarını faktlarla, şahidlərlə sübut etməyə hazıram"


6

Tarif (qiymət) Şurasının iclasında daha 600-dən çox dərman vasitəsinin qiyməti təsdiqlənib


9

Amerika dərgisindən Azərbaycana qarşı növbəti provokasiya


9

ABŞ konqresmeni 20 Yanvar və Xocalı faciələrinin ildönümləri ilə bağlı bəyanatla çıxış edib


2

10
Səhiyyə Nazirliyi: Azərbaycanda "donuz qripi" qeydə alınmayıb




13
Fermerlərə problemi kim yaradır?

16
AFFA Canni İnfantinonun namizədliyini dəstəkləyir



# Prezident İlham Əliyev Londonda Xorvatiya Prezidenti Kolinda Qrabar-Kitaroviç ilə görüşüb

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də Londonda "Suriyaya və regiona dəstək" konfransı çərçivəsində Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviç ilə görüşüb.***

Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişafından məmnunluq bildirildi. İqtisadi əməkdaşlığın daha da inkişaf etdirilməsində, enerji, nəqliyyat və infrastruktur layihələrinin həyata keçirilməsində qarşılıqlı maraq ifadə olundu. Azərbaycan Prezidenti İlham Əliyev böyük İpək Yolu və "Cənub" qaz dəhlizi layihələrinin həyata keçirilməsi istiqamətində görülən işlərdən danışdı. Söhbət zamanı birgə layihələrin reallaşdırılması ilə bağlı qarşılıqlı razılığın əldə edilməsinə dair fikir mübadiləsi aparıldı.



# Gintaras Visotskas: Qonşuların torpaqlarını tutan təcavüzkar separatçı qüvvələri dayandırmağın vaxtı yetişib

***Litvanın www.slaptai.lt portalında məşhur jurnalist, həmin portalın rəhbəri Gintaras Visotskasın "Avropada dondurulmuş münaqişələrə üstünlük verənlər çoxdur" sərlövhəli məqaləsi dərc edilib. Müəllif Gürcüstan, Ukrayna və Baltikyanı ölkələrdə yaranmış vəziyyəti təhlil edərək vurğulayır ki, Ermənistana tərəfgirlik edən Litva Azərbaycanın Dağlıq Qarabağın qaytarılması səylərini dəstəkləməkdən imtina etməklə əslində kənardan rəhbərlik edilən, qızışdırılan və dəstəklənən, bunun sayəsində Dnestryanı bölgəni Moldovanın, Abxaziyanı isə Gürcüstanın əlindən almış separatçılardan heç nə ilə fərqlənməyən erməni separatçılarını dəstəkləyir.***

Gintaras Visotskas Litva Seymində Dağlıq Qarabağla dostluq parlament qrupunu yaratmış Dalya Kuoditeni ikili standartlar yürütməkdə ittiham edir. Dalya Kuoditenin mövqeyi belədir: Ukraynanın ərazi bütövlüyü müqəddəs məsələdir, Azərbaycanın ərazilərinin itirilməsinin isə bizə heç bir dəxli yoxdur.

Jurnalist vurğulayır ki, Litva Seymində D.Kuodite başda olmaqla bugünkü Dağlıq Qarabağla dostluq qrupunun yaradılması, heç şübhəsiz, Litvanın səhvidir. Gintaras Visotskas yazır ki, yanvarın 26-da Avropa Şurası Parlament Assambleyasının iclasında Azərbaycan üçün vacib olan iki qətnamə - Britaniya parlamentarisi Robert Uolterin təqdim etdiyi "Azərbaycanın Dağlıq Qarabağ və digər işğal edilmiş ərazilərində gərginliyin artması" və Bosniya və Herseqovina siyasətçisi Militsa Markoviçin təqdim etdiyi "Azərbaycanın sərhədyanı ərazilərinin sakinləri qəsdən sudan məhrum edilib" adlı qətnamələr üzrə səsvermə zamanı Litva daha bir səhvə yol verib.




Britaniyalı deputat R.Uolterin qətnaməsində Dağlıq Qarabağın kim tərəfindən işğal edilməsi daha ciddi və konkret göstərilib. Gintaras Visotskas əmindir ki, bu səbəbdən Avropada birləşmiş ermənipərəst qüvvələrin həmin qətnamənin qəbul edilməsinə mane olması gözlənilirdi. Qeyri-rəsmi şəkildə "kəskin" adlanan bu sənəd bəyənilmədi: səsvermədə iştirak edənlərdən 66-sı həmin sənədin lehinə, 70-i əleyhinə səs verdi, 45 nəfər isə bitərəf qaldı.

Məqalə müəllifini maraqlandıran məsələ Fransa, Almaniya və ya Britaniya nümayəndə heyətlərinin yox, məhz Litva nümayəndə heyətinin necə səs verməsidir. Dağlıq Qarabağı işğal etmiş insanlarla dostluğun tərəfdarı olan D.Kuodite və onun həmkarı Birute Vesayte bu qətnaməni dəstəkləməyiblər.

Litvalı jurnalist B.Vesaytenin Avropa Parlamentində səsvermə zamanı hansı motivləri əsas götürməsi ilə maraqlanıb. B.Vesayte Avropa Parlamentinin sosial-demokrat fraksiyanın üzvü kimi bu fraksiyanın qərarını dəstəkləyib. Görəsən, avropalı sosialistlərdən ibarət fraksiyanın motivləri nədən ibarətdir?. G.Visotskas əmindir ki, Dağlıq Qarabağa dair danışıqlarda konkret nəticələr əldə etməyə qadir olmayan, münaqişələri yalnız onilliklər boyu dondurmağa çalışan və beləliklə qonşuların torpaqlarını işğal edən təcavüzkar separatçı qüvvələrə dolayısı ilə şərait yaradan Minsk qrupunu daha prinsipial siyasətçilərlə əvəz etməyin vaxtı yetişib.

***Nigar Cəfərli***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Vilnüs***



## ABŞ konqresmeni 20 Yanvar və Xocalı faciələrinin ildönümləri ilə bağlı bəyanatla çıxış edib

ABŞ-ın Nyu-Cersi ştatından olan konqresmen Donald Peyn 20 Yanvar və Xocalı faciələrinin ildönümləri ilə bağlı ABŞ Konqresində bəyanatla çıxış edib. Konqresmen D.Peyn bəyanatında 1990-cı il yanvarın 20-də sovet ordusunun dinc nümayiş keçirən mülki şəxslərə hücum etdiyini və nəticədə onlarla insanın öz həyatını itirdiyini qeyd edib. O, həmçinin Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazisində yerləşən Xocalıda 1992-ci il fevralın 25-dən 26-na keçən gecə aralarında qadın və uşaqların da olduğu 600-dən çox dinc sakinin qətlə yetirildiyini bildirib. Bəyanatda bu faciəvi tarixlərin anılması ilə bağlı Konqresin digər üzvlərinə də çağırışlar əks olunub. Sonda konqresmen Azərbaycanın strateji baxımdan əhəmiyyətli bölgədə ABŞ-ın güclü müttəfiqi olduğunu vurğulayıb.

***Yusif Babanlı***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Vaşinqton***

# Azərbaycan uğurlu inkişafını bundan sonra da davam etdirəcək

## *Prezident İlham Əliyev: "Gördüyümüz işlərin mahiyyəti odur ki, daha güclü dövlət yaradaq ki, xalqımız rifah içində, təhlükəsiz şəraitdə yaşasın"*

***Faktdır ki, bu gün Azərbaycan beynəlxalq aləmdə siyasi-hərbi və sosial-iqtisadi spektrdə mövqelərini möhkəmləndirməkdə davam edir. Bu uğurların əldə edilməsində isə ölkə rəhbərliyi tərəfindən həyata keçirilən məqsədyönlü siyasi kurs mühüm əhəmiyyət kəsb edir. Bu xüsusda isə Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə təsdiq edilmiş və həyata keçirilmiş sosial-iqtisadi proqramların da rolu qeyd edilməlidir. 2004-cü ildən başlayaraq qəbul edilən və uğurla icra olunan dövlət proqramları bu inkişafı daha da sürətləndirib.***



Ötən gün "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının ikinci ilinin yekunlarına həsr olunmuş konfransda çıxış edən Prezident İlham Əliyev bu və digər məsələlərə toxunub, mühüm mesajlar verib. Dövlət başçısı qeyd edib ki, 2015-ci ildə dünyada iqtisadi böhran daha da dərinləşib, dünya iqtisadiyyatı böhrandan çıxa bilmir. Davosda da şahidi oldum ki, dünya iqtisadiyyatı hələ böhran vəziyyətində qalacaq. Azərbaycanda 2015-ci ildə nəzərdə tutulan layihələr icra edilib. Bu, böyük uğurdur. Çünki bölgəmizdə qanlı müharibələr davam edir, Avropada yeni böhran yaşanır, miqrantlarla bağlı vəziyyət gərginləşir. Evlərini, əmlaklarını itirmiş insanlar Avropaya üz tuturlar və onların orada nə ilə qarşılaşdıqları gözümüz önündədir.

Regionların sosial-iqtisadi inkişafı dedikdə, ilk olaraq böyük infrastruktur layihələri göz önünə gəlir. Bu layihələr nəticəsində hətta ən ucqar kəndlərdə belə insanlar təbii qaz, elektrik enerjisi, su və s. ilə keyfiyyətli şəkildə təmin edilirlər. Burada uşaqların təhsil alması üçün böyük məktəblər tikilir, həmçinin digər mühüm sosial obyektlər istifadəyə verilir. Konfransda Prezident İlham Əliyev bildirib ki, son 12 ildə ölkədə 25 elektrik stansiyası tikilib: "2004-cü ildə demək olar ki, rayonlarda qaz yox idi. Biz 2007-ci ilə qədər qazı xaricdən alırdıq. Bu gün Azərbaycan üzrə qazlaşma 90 faizə çatıb, sovet dövründə qaz üzü görməyən ucqar yerlərə də qaz çəkdik. Bölgələrdə qazlaşma səviyyəsi 80 faiz təşkil edir. Son illərdə 12 min km yol çəkilib. Bizi başqa ölkələrlə birləşdirən magistral yollar qurulub. Eyni zamanda, kənd yolları çəkilir, bu il də bu məqsədlə əlavə vəsait ayrılacaq. Digər tərəfdən, əhaliyə 24 saat ərzində təmiz su verilməlidir, bu istiqamətdə də işlər görülürE Azərbaycanda 5 minə qədər məktəb var, son 12 ildə 3 min məktəb tikilib. Son 12 ildə maaşlar 5 dəfə, pensiyalar 7 dəfə artıb. 89 məcburi köçkün qəsəbəsi tikilib, 225 min insan yeni mənzillərə köçürülüb. Hesab edin ki, böyük bir şəhər yaratmışıq. Digər tərəfdən, ötən müddət ərzində sahibkarlara 1,7 milyard manat güzəştli kredit verilib. 12 il ərzində Azərbaycana 200 milyard dollar xarici sərmayə qoyulub. Sabitlik olmasa, bu qədər xarici sərmayə Azərbaycana qoyulardımı?".

Bu gün dünya böhrandan əziyyət çəkir. Bir çox ölkələr kimi, böhran Azərbaycana da öz təsirini göstərir. Ancaq ölkə rəhbərliyinin bu ərəfədə qəbul etdiyi qərarlar, həyata keçirdiyi islahatlar sayəsində Azərbaycan bu böhrandan daha az zərərlə çıxmağı bacarır. Hər bir Azərbaycan vətəndaşı da bu reallığı görür və dərk edir. Dövlət başçısının sözlərinə görə, Azərbaycanda ictimai-siyasi sabitlik bərqərar olub: "Gördüyümüz işlərin mahiyyəti odur ki, daha güclü dövlət yaradaq ki, xalqımız rifah içində, təhlükəsiz şəraitdə yaşasınE Xalqımızın vahid amal ətrafında birləşməsi, uğurlarımız bunu təmin edir. Baxmayaraq ki, ətraf ölkələrdə qarşıdurmalar baş verir. Belə olan halda, Azərbaycan nümunəsi dünya üçün əhəmiyyətlidir və bir çox yerdə Azərbaycan təcrübəsi öyrənilir. Azərbaycan demokratiya yolu ilə sürətlə irəliləyir. Bu, bizim şüurlu seçimimizdir. İqtisadi inkişaf demokratik prosesdən kənar təmin oluna bilməz. Ona görə də Azərbaycanda iqtisadi və demokratik islahatlar paralel aparılır. Parlament seçkiləri də bunu sübut etdi, seçkilər şəffaf keçdi, Azərbaycan xalqının arzuları tam təmin edildi. Seçkinin nəticələri apardığımız siyasətə xalqımızın böyük dəstəyini ortaya qoydu. Ona görə də xalqımıza minnətdaram. Xalqımızı əmin etmək istəyirəm ki, dünyadakı böhrana baxmayaraq, Azərbaycan uğurla inkişaf edəcək."

Son dövrlər neftin qiymətinin aşağı düşməsi aktual məsələ kimi əsas müzakirə mövzularından biridir. Neft ölkəsi olan Azərbaycan da bu məqamda yeni islahatların həyata keçirilməsi ərəfəsindədir. Xüsusi olaraq diqqət yetirilən sahələrdən biri qeyri-neft sektorunun daha da inkişaf etdirilməsidir. Yalnız bu halda neftdən asılılığı azaltmaq mümkündür. Hazırda ölkədə qeyri-neft sektorunun inkişafı ilə bağlı mühüm işlər görülür və uğurlu nəticələr əldə edilir. Bu, statistik rəqəmlərdə də özünü büruzə verir. Prezident İlham Əliyev vurğulayıb ki, ölkə iqtisadiyyatının əsas göstəricisi qeyri-neft sənayesinin 8,4 faiz artmasıdır: "Neftin qiymətinin 4 dəfə, qonşu ölkələrin milli valyutalarının 100 faiz dəyərdən düşməsi manatın məzənnəsini sabit saxlamağa imkan vermədi. Ancaq nəzərə almaq lazımdır ki, biz bazar iqtisadiyyatı şəraitində yaşayırıq. Sosial siyasət, dərin iqtisadi islahatlar bizə bu vəziyyətdən də uğurla çıxmağa imkan verəcək. 2016-cı il dərin iqtisadi islahatlar ili olmalıdır və olacaq. Əlavə sərəncam və fərmanlar da imzalanacaq ki, iqtisadiyyatımız gücələnsinE Kənd təsərrüfatına da son vaxtlar xüsusi diqqət göstərilir, bu sahədə 6,4 faiz artım olub. Çalışmalıyıq ki, böhranlı şəraitdə də iqtisadiyyatımız inkişaf etsin, 2016-cı ildə yeni iş yerləri, müəssisələr yaradılsın."

Dövlət başçısı xüsusi olaraq qeyd edib ki, son 12 ildə böyük uğurlar əldə edilib. Əgər iqtisadi müstəqillik əldə olunmasaydı, Azərbaycan asılı vəziyyətə düşəcəkdi: "Düzdür, keçən il çətin olub. Ancaq biz çətinliklə də üzləşməliyik, 1990-cı illərdən çətin vəziyyət deyil. Dünya iqtisadiyyatında bizdən asılı olmayan səbəblərdən tənəzzül yaşanır, biz də dünya iqtisadiyyatının bir hissəsiyik. Bizə də təsir edir, amma biz inamla inkişaf edəcəyik. Son 12 il ərzində böyük, şərəfli yol keçmişik. Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri çəkilib, kosmik dövlətə çevrilmişik."

Hazırda ölkəmizdə sahibkarlığın inkişafı prioritet sahələrdən biridir. Bu istiqamətdə mühüm tədbirlər görülür. Sahibkarlara güzəştli kreditlər verilir, bir sözlə, onlar üçün münbit şərait yaradılır. Bununla yanaşı, xarici investorlar üçün əlverişli mühit formalaşdırılır. Dövlət başçısı konfransda əlavə edib ki, sahibkarlığın inkişafı üçün böyük işlər görülüb: "Ancaq yeni dövr yeni yanaşmalar tələb edirE Sahibkarlığı inkişaf etdirmək, yerli istehsalı artırmaq üçün əlavə tədbirlər görülməlidir. Ancaq istəyirəm yerlərdə sahibkarlar problemləri dilə gətirsinlər ki, o problemlər həllini tapsınE Ölkəyə daha çox xarici investisiya cəlb olunmalıdır. Ümumilikdə, Azərbaycanda investisiya mühiti yaxşıdır. Belə olmasa, ölkəmizə 100 milyard xarici investisiya qoyulmazdı. Sadəcə, indi çalışmalıyıq ki, xarici investisiya qeyri-neft sektoruna cəlb edilsin. Eyni zamanda, Azərbaycanda ixracın təşviqi mexanizmini yaradırıq. Azərbaycanda rəqabət qabiliyyətli məhsul istehsal edən və xaricə satan sahibkarlara güzəştlər edilməlidir."

Statistik rəqəmlər göstərir ki, ötən 12 ildə ölkəmizdə 1,5 milyon yeni iş yeri açılıb. Bu, olduqca müsbət göstəricidir. Ancaq dövlət başçısı bildirir ki, bununla kifayətlənmək olmaz. Əhalinin sayı artdığı üçün, yeni iş yerlərinin açılması da zərurətə çevrilir. Bu zaman iş adamlarının üzərinə böyük sosial məsuliyyət düşür. Prezident İlham Əliyevin sözlərinə görə, yeni iş yerlərinin yaradılmasına ehtiyac var, çünki bəzi iş yerləri bağlanır: "Son 12 ildə 1 milyon 500 min iş yeri yaradılıb, 1 milyon iş yeri daimidir. Digər tərəfdən, Azərbaycan əhalisi artıb, bu il Azərbaycan əhalisi 9,7 milyon nəfərdir. Əhalinin artması inkişafın əlamətidir. Əhalinin artması üstünlükdür, eyni zamanda bizi daha fəal işləməyə çağırır. Mən əhalinin artmasına sevinirəm, ancaq infrastruktur, iş yerləri də buna uyğun artmalıdır. Sosial məsuliyyət nəzərə alınmalı, şirkətlərdə ixtisar hallarının olmamasına çalışılmalıdır. İş yerlərinin açılmasında dövlət şirkətləri nümunə göstərməlidirlər. İşlərini itirən insanlar dövlət şirkətlərinə müraciət etsinlər, əminəm ki, iş yerləri olacaq. Sahibkarlar da bu prosesdə iştirak etməlidirlər. Çünki iş adamlarına dövlət hərtərəfli dəstək verir və iş adamları da sosial məsuliyyətlərini dərk etməlidirlər."

Göründüyü kimi, "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının ikinci ilinin yekunlarına həsr olunmuş konfransda dövlət başçısı İlham Əliyev bir sıra məsələlərlə bağlı mühüm fikirlər səsləndirib, öz tapşırıq və tövsiyələrini verib. Məqsəd indiki şəraitdə qarşıdakı vəzifələri müəyyən etmək və onların həlli istiqamətində daha səylə çalışmaqdır. Şübhə yoxdur ki, böhranlı günlər arxada qalacaq və Azərbaycan uğurlu inkişafını bundan sonra da davam etdirəcək.

***"Səs" Analitik Qrupu***

## Zeynal Nağdəliyev: Ölkədə 30 minə yaxın iş yeri müəyyənləşib



***İcra hakimiyyətlərində qərargahlar və "qaynar xətt" yaradılıb. Bütün sahibkarların, sakinlərin müraciətlərinə həssaslıqla yanaşılmalı, təhlil aparılmalıdır. Bütövlükdə, hər bir iş Azərbaycanda sahibkarlığın inkişafına yönəldilməlidir. AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Prezidenti Administrasiyası rəhbərinin müavini, regional idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Zeynal Nağdəliyev Sumqayıtda jurnalistlərə müsahibəsində söyləyib.***

Zeynal Nağdəliyev deyib: "Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, bu və ya digər səbəblərdən fəaliyyətini dayandırmış qurumlardan azad olunmuş işçilər var. Dövlətimizin başçısı onların işlə təmin olunması məsələsini icra orqanlarının qarşısında vəzifə olaraq qoyub. 30 minə yaxın iş yeri artıq müəyyənləşib və bunlar həm müvafiq mərkəzi, həm də yerli icra orqanları tərəfindən tənzimlənəcək. Onların məvacibləri də münasib olacaq. Prezident İlham Əliyevin tapşırığı budur ki, hər bir ailənin yeni yaranmış şəraitdə müəyyən qazancı olmalıdır".

## Yeni islahatlar sahibkar-dövlət orqanı münasibətlərində yaranan mübahisələrin çevik həllinə imkan verəcək

*Bu fikir Azərbaycan Respublikası Prezidentinin İqtisadi İslahatlar üzrə Köməkçisi Xidmətinin AZƏRTAC-a açıqlamasında xüsusi vurğulanır*

***Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən, Prezidentin İqtisadi İslahatlar üzrə Köməkçisi Xidmətindən AZƏRTAC-a verilən açıqlamada bildirilir ki, sahibkarlığın inkişafı, əlverişli biznes mühitinin yaradılması məqsədilə əsaslı şəkildə islahatların aparılması xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən müəyyən edilmiş və hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ardıcıl olaraq həyata keçirilən iqtisadi inkişaf strategiyasının tələblərindən irəli gəlir. İqtisadiyyatın, o cümlədən regionların davamlı və tarazlı inkişafının sürətləndirilməsi ölkəmizin sosial-iqtisadi tərəqqisinin hazırkı mərhələsinin prioritet vəzifələrindəndir. Bu siyasətin həyata keçirilməsində özəl sektor əhəmiyyətli rol oynamaqdadır ki, bu da həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində biznes mühitinin əlverişliliyinin artırılması ilə şərtlənib. Hazırda bu sahədəki siyasət sahibkarlığa dövlət himayəsinin sistemli şəkildə həyata keçirilməsinin, sahibkarlara dövlət dəstəyi tədbirlərinin səmərəsinin yüksəldilməsinin təmin edilməsinə yönəldilib.***

Azərbaycan Prezidenti İlham Əliyevin ölkədə sahibkarlığın inkişafı ilə bağlı həyata keçirdiyi islahatlar ictimaiyyət tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanır və sahibkarlar ölkə rəhbərinin qərarlarının, tapşırıqlarının, imzaladığı fərman və sərəncamların onların fəaliyyətinə geniş imkanlar açacağına əmindirlər.

Azərbaycan Prezidentinin sahibkarların hüquqlarının qorunması istiqamətində atdığı növbəti addım dövlətimizin başçısının 2016-cı il 3 fevral tarixli Fərmanı ilə mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuralarının və Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurasının yaradılmasıdır. Həmin Fərmanın qəbul edilməsində məqsəd sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin şikayətlərinə baxılması sahəsində şəffaflığın və obyektivliyin təmin edilməsi, onların hüquqlarının və qanunla qorunan maraqlarının müdafiəsi, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının qərarlarından, hərəkət və ya hərəkətsizliyindən yuxarı orqana təkrar şikayətlərin verilməsinə imkan yaratmaqdır. Fərmanın qəbul edilməsindən sonra sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslər özlərinin sahibkarlıq fəaliyyəti ilə bağlı yerli icra hakimiyyəti orqanının sərəncamından, əmrindən, mərkəzi icra hakimiyyəti orqanının və onun yerli (struktur) qurumlarının qərarlarından, hərəkət və ya hərəkətsizliyindən (korrupsiya ilə əlaqədar hüquqpozmalara bağlı müraciətlər istisna olmaqla) yerli icra hakimiyyəti orqanlarının və mərkəzi icra hakimiyyəti orqanlarının Apellyasiya Şuralarına müraciət edə biləcəklər. Bundan əlavə, sahibkarlar yerli icra hakimiyyəti orqanlarının və mərkəzi icra hakimiyyəti orqanlarının Apellyasiya Şuralarının qərarlarından, hərəkət və ya hərəkətsizliyindən narazı qaldığı təqdirdə Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurasına müraciət edəcəklər.

Həmin islahatın nəticəsində yerli icra hakimiyyəti və mərkəzi icra hakimiyyəti orqanlarının sahibkarların hüquqlarının qorunması sahəsində məsuliyyəti bir qədər də artıb. Belə ki, Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurası haqqında Əsasnamədə Şuraya daxil olan şikayətlərin araşdırılması zamanı aşkar olunan nöqsanların və pozuntuların aradan qaldırılması ilə bağlı aidiyyəti mərkəzi və yerli icra hakimiyyəti orqanlarına müvafiq göstərişlər verilməsi üçün Azərbaycan Respublikası Prezidentinə müraciət etmək hüququnun, şikayətlərin araşdırılması zamanı mərkəzi və yerli icra hakimiyyəti orqanlarının vəzifəli şəxsləri tərəfindən xidməti fəaliyyətlərinin icrası ilə bağlı kobud nöqsanlara yol verilməsi, habelə hüquqi aktların tələblərinin pozulması halları aşkar edildikdə, həmin şəxslərin məsuliyyətə cəlb olunması məqsədilə qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlərin görülməsi üçün aidiyyəti üzrə məsələ qaldırmaq və nəticəsi barədə arayış almaq hüququnun və Şuranın qərarlarının yerinə yetirilməsinin monitorinqini aparmaq, nöqsanların aradan qaldırılması ilə bağlı tədbirlər görmək hüququnun təsbit edilməsi bunun bariz nümunəsidir. Ümumiyyətlə, sahibkarların hüquqlarının qorunması fonunda ölkə Azərbaycan Prezidentinin həyata keçirdiyi islahat sahibkar-dövlət orqanı münasibətlərində yaranan mübahisələrin qısa zaman çərçivəsində çevik həllinə imkan verəcək, sahibkarların hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı təminatların genişləndirilməsinə yönəlməklə yanaşı, insan hüquq və azadlıqlarının etibarlı qorunması istiqamətində yeni bir mərhələ olacaqdır.

Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən, Azərbaycan Prezidentinin İqtisadi İslahatlar üzrə Köməkçisinin Xidməti görülmüş və görüləcək işlər barədə məlumatları mütəmadi olaraq KİV-lər vasitəsilə ictimaiyyətə çatdıracaq.

## Azərbaycan Prezidentinin təşəbbüsü ilə struktur islahatları davam etdirilir

*Prezidentin İqtisadi İslahatlar üzrə Köməkçisi Xidmətinin AZƏRTAC-a açıqlamasında belə deyilir*



***Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə biznes mühitinin yaxşılaşdırılması, şəffaflığın təmin edilməsi və dövlət idarəçiliyində səmərəliliyin artırılması istiqamətində struktur islahatları davam etdirilir. Bu kontekstdə ölkənin maliyyə-bank sisteminin səmərəli inkişafının təmin olunması, həmin sahədə tənzimləmə və nəzarətin mütərəqqi metod və mexanizmlərinin tətbiqi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli Fərmanı ilə Maliyyə Bazarlarına Nəzarət Palatası yaradılıb. Bu fikirlər Azərbaycan Prezidentinin İqtisadi İslahatlar üzrə Köməkçisi Xidmətinin AZƏRTAC-a açıqlamasında vurğulanır.***

Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən, Prezidentin İqtisadi İslahatlar üzrə Köməkçisi Xidməti ictimaiyyətin diqqətinə çatdırır ki, Palata qabaqcıl beynəlxalq prinsiplərə əsaslanaraq ölkədə qiymətli kağızlar və sığorta bazarlarının, investisiya fondlarının, ödəniş sistemləri və kredit təşkilatlarının, o cümlədən milli poçt operatorunun maliyyə-bank fəaliyyətinin tənzimlənməsinin bütün aspektlərini həyata keçirəcək. Qeyd olunan sahələr üzrə lisenziyalaşdırılmasına, iqtisadi və hüquqi davranış normalarının müəyyən edilməsi və tətbiqinə nəzarətlə yanaşı Palata, həmçinin cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması, terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması sahələrində fəaliyyəti də əlaqələndirəcək.

Şəffaflığın təmin edilməsi üçün Palata kollegial prinsiplərlə idarə olunacaq. Bu zaman əməliyyat və maliyyə müstəqilliyi prinsipləri əsas götürüləcək. Fərmana müvafiq olaraq 1 ay ərzində Palatanın nizamnaməsi, strukturu və idarəetmə tərkibi dövlətimizin başçısı tərəfindən müəyyən ediləcək və bu andan Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Sığorta Nəzarəti Xidməti və Azərbaycan Respublikasının Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidmətinin fəaliyyətinə xitam veriləcək. Bu da, müvafiq sahələrdə vahid tənzimlənmənin davamlı və ardıcıl tətbiqini təmin edəcək. Maliyyə bazarlarında vahid tənzimləyici yanaşma qlobal maliyyə mərkəzlərində uğurla tətbiq edilir və Palata öz fəaliyyətində məhz belə mütərəqqi beynəlxalq təcrübəni rəhbər tutacaq.

## "Xocalı soyqırımının iyirmi dördüncü ildönümünün keçirilməsinə dair tədbirlər planı" təsdiq edilib




***Azərbaycan Respublikasının Prezidenti Administrasiyası rəhbərinin Sərəncamı ilə "Xocalı soyqırımının iyirmi dördüncü ildönümünün keçirilməsinə dair tədbirlər planı" təsdiq edilib. Tədbirlər planında Bakının Xətai rayonunda, Goranboy rayon mərkəzində və Ağcakənd qəsəbəsində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidələrin önünə əklil qoyulması mərasimlərinin keçirilməsi, Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirliklərində, nümayəndəliklərində və diaspor təşkilatlarında bu soyqırımı ilə bağlı tədbirlərin (mətbuat konfranslarının, anım mərasimlərinin və s.) təşkili, xarici və yerli kütləvi informasiya vasitələri, o cümlədən teleradio kanallarında, internet şəbəkəsində qanlı qırğını əks etdirən materialların yayılması və mütəmadi olaraq yenilənməsi nəzərdə tutulub.***

Sənədə əsasən, ölkədə fəaliyyət göstərən dini konfessiya və qurumlar tərəfindən Xocalı soyqırımı qurbanlarının xatirəsinə həsr olunan anım mərasimləri təşkil ediləcək, idarə və təşkilatlarda, teatr-konsert müəssisələrində, sərgi salonlarında, ali və orta məktəblərdə xatirə gecələri, foto-rəsm sərgiləri, şahidlərlə görüşlər keçiriləcək, milli azadlıq uğrunda mübarizəyə həsr olunan sənədli və bədii filmlər nümayiş etdiriləcək.

Xocalı sakinlərinin müvəqqəti məskunlaşdıqları şəhər və rayonlarda (Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Şəki, Goranboy, Bərdə, Sabirabad, Göyçay, Zaqatala, Oğuz, Balakən) dövlət qurumları rəhbərlərinin, Milli Məclisin deputatlarının və ziyalıların şəhid ailələri ilə görüşləri təşkil ediləcək. Fevralın 26-da təhsil müəssisələrində ilk dərslər bu faciəyə həsr olunacaq, həmin gün saat 17.00-da bütün ölkə ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad ediləcək, respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində Azərbaycanın dövlət bayraqları endiriləcək.

**Samir**

# Zeynal Nağdəliyev: "Xalqla hakimiyyətin sıx birliyi Azərbaycanın uğurlarının rəhnidir"



***Fevralın 4-də Sumqayıtda 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağı və Azərbaycan Prezidenti Administrasiyası rəhbərinin müavini, regional idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Zeynal Nağdəliyevin şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşü keçirilib. AZƏRTAC xəbər verir ki, tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin Sumqayıt şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə tər çiçəklər düzüblər.***

Sonra Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcovun ötən ilin yekunlarına dair hesabat məruzəsi dinlənilib. Diqqətə çatdırılıb ki, Azərbaycan Prezidenti İlham Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasının həyata keçirilməsi nəticəsində 2015-ci il Sumqayıt üçün də uğurlu olub. Hesabat ilində şəhər üzrə ümumi daxili məhsul istehsalının və xidmətlərin həcmi 1,0 faiz artaraq 796 milyon manat təşkil edib. Sənaye məhsulunun istehsalı 437,7 milyon manat olmaqla, artım tempi 5,3 faiz, ümumi daxili məhsulun tərkibində qeyri-neft sektorunun payı 85 faizdən çox olub. Məhsul istehsalı kimya sənayesi üzrə 87,5 faiz, metallurgiya üzrə 26,4 faiz, yüngül sənaye üzrə 143,8 faiz, yeyinti sənayesi üzrə 205,5 faiz, energetika üzrə 108,4 faiz, digər sahələr üzrə 140,7 faiz olub. Şəhərdə elektrik enerjisi istehsalı 21,0 faiz artıb. Məruzədə bildirilib ki, sahibkarlığın inkişafına dövlət dəstəyinin gücləndirilməsi, investisiya layihələrinin güzəştli qaydada kreditləşdirilməsi Sumqayıtda biznes mühitini böyük dərəcədə yaxşılaşdırıb. Hesabat dövründə şəhərdə 4 zavod istismara verilib. Sumqayıt Texnologiya Parkında altı zavodun tikintisində işlər yekunlaşmaq üzrədir. Gilan Tekstil Parkında 5 yeni fabrikin, Sumqayıt Sənaye Parkında "AzərSun"un tara fabrikinin və kənd təsərrüfatı üçün zəruri olan azot gübrəsi istehsal edəcək Karbamid zavodunun tikintisi davam etdirilir. İldə 1,5 min ton quş əti istehsal edəcək "Elat" fabrikinin işə salınması əhalinin bu məhsula tələbatının təmin olunmasında mühüm rol oynayacaq.

Dövlətimizin başçısının sahibkarlığın inkişafına dəstək siyasəti çərçivəsində hesabat dövründə Sahibkarlığa Kömək Milli Fondundan Sumqayıtda 20 layihə üzrə 3,2 milyon manat güzəştli kredit verilib. Bu layihələrin reallaşdırılması nəticəsində 280 yeni iş yeri açılacaq. Ümumiyyətlə, yaxın 2-3 ildə şəhərə 2 milyard manatdan çox investisiya qoyuluşu və 10 min yeni iş yerinin açılması nəzərdə tutulur.

Hesabat məruzəsində təhsil, səhiyyə, mədəniyyət, idman sahələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, yol infrastrukturunun yaxşılaşdırılması, əhalinin elektrik enerjisi, içməli su, təbii qazla təminatı ilə əlaqədar görülən işlərdən, nəqliyyat və rabitə xidmətlərindən də ətraflı bəhs olunub. Məruzə ətrafında çıxışlarda görülən işlər ətraflı təhlil edilib, uğurlarla yanaşı, problemlər də sadalanıb, onların həlli üçün təkliflər irəli sürülüb.

Daha sonra yığıncaq işini Azərbaycan Prezidenti Administrasiyası rəhbərinin müavini, regional idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Zeynal Nağdəliyev ilə görüş formatında davam etdirib.

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən mərkəzi icra və idarəetmə orqanlarının rəhbərlərinin, Milli Məclisin deputatlarının ölkənin bütün şəhər və rayonlarında belə toplantılarda iştirak etdiklərini, insanları narahat edən məsələlərlə yerində tanış olduqlarını vurğulayan Zeynal Nağdəliyev deyib: "Bu, ümummilli liderimiz Heydər Əliyevin dövlətçilik siyasətini uğurla həyata keçirən Prezident İlham Əliyevin prinsipial mövqeyidir, iş üslubudur, xalqına dərin hörmət və xidmət nümunəsidir. Dövlətimizin başçısı Azərbaycanın bölgələrində dəfələrlə olub, minlərlə mühüm sosial-iqtisadi obyektin açılışını edib, əhalinin bütün zümrələri ilə görüşlər keçirib, onların qarşılaşdığı problemləri bilavasitə özlərindən öyrənib. Cənab Prezident Sumqayıta isə 15 dəfə səfər edib, şəhərin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlərlə bağlı 14 Fərman və Sərəncam imzalayıb".

Prezident Administrasiyasının rəsmisi deyib ki, məhz xalqla hakimiyyətin sıx birliyi Azərbaycanın uğurlarının rəhnidir. Bu birlik əsasında ölkəmiz qısa müddətdə yüksək nailiyyətlər əldə edib və möhkəmlənib. Ancaq bu gün dünya iqtisadiyyatı enerji resurslarının qiymətinin aşağı düşməsi kimi mənfi meyillə üz-üzədir. Bir tərəfdən enerji resurslarını ixrac edən ölkələrin milli gəliri azalır, digər tərəfdən isə əksər ölkələrdə milli valyutaların dəyərdən düşməsi müşahidə olunur. Bu qlobal iqtisadi proseslər ölkəmizə də öz təsirini göstərir. Manatın məzənnəsinin aşağı düşməsi dünyada gedən proseslərin Azərbaycana mənfi təsiri ilə bilavasitə bağlıdır. Azərbaycan Prezidenti vətəndaşların maddi durumuna öz mənfi təsirini göstərən devalvasiya prosesini öz axarına buraxmayaraq, əhalinin sosial müdafiəsinin gücləndirilməsi üçün zəruri tədbirlər həyata keçirir.

Bu məqsədlə daxili istehsalın stimullaşdırılması, valyuta bazarının tənzimlənməsi ilə bağlı qanunvericilikdə müvafiq dəyişikliklərin edilməsi, istehlak qiymətlərinə ciddi nəzarət tədbirləri, korrupsiyaya, rüşvətxorluğa və digər bu kimi hallara qarşı mübarizənin gücləndirilməsi, sahibkarların fəaliyyətinə hərtərəfli dəstək, həmçinin bəzi şəxslərin mövcud vəziyyətdən öz mənafeyi naminə sui-istifadə cəhdlərinin qarşısının alınması, müvafiq dövlət orqanlarının bu prosesi ciddi nəzarətə götürməsi və s. tədbirlər məqsədyönlü şəkildə davam etdirilir. Göstərilən tədbirlər, o cümlədən verilmiş qərarlar nəticəsində çörəyin və unun qiyməti əhəmiyyətli dərəcədə aşağı düşmüşdür.

Ölkədə biznes mühitinin yaxşılaşdırılması istiqamətində əlavə tədbirlər görüldüyünü vurğulayan Zeynal Nağdəliyev bildirib ki, bu məqsədlə lisenziyaların sayı azaldılıb, bürokratik əngəllər aradan götürülüb, sahibkarlıq subyektlərində yoxlamalar 2 il müddətinə dayandırılıb, lisenziyaların "ASAN xidmət" mərkəzlərində verilməsinə və "Elektron lisenziya" portalının yaradılmasına başlanılıb. Digər tərəfdən, iqtisadi tərəqqini sürətləndirmək məqsədilə geniş özəlləşdirmə proqramlarının həyata keçirilməsi üçün zəruri işlər görülür. Azərbaycanın uzunmüddətli uğurlu inkişafının heç bir investorda şübhə doğurmadığını nəzərə alsaq, uzun illər fəaliyyətsiz qalan müəssisələrin canlandırılması ilə bağlı icra ediləcək layihələr ölkənin inkişafında mühüm rol oynayacaq.

Prezident Administrasiyası rəhbərinin müavini deyib: "Yeni dövr, yeni vəziyyət yeni yanaşmalar tələb edir. Ona görə də indiki şəraitdə sahibkarlara daha da yaxşı şərait yaratmaq, yerli istehsalı sürətləndirmək üçün əlavə tədbirlərin görülməsi ən mühüm vəzifəyə çevrilməlidir. Yerli sahibkarlar, ilk növbədə, sərmayəni iqtisadiyyatın real sektoruna, istehsal sahələrinin yaradılmasına, kənd təsərrüfatına, sənayenin inkişafına və xidmət sektoruna yatırmalıdırlar. Bir daha qeyd etmək istəyirəm ki, Prezident İlham Əliyevin həyata keçirdiyi müdrik siyasətin nəticəsidir ki, bir çox ölkələrdən fərqli olaraq Azərbaycan dövləti baş verən bu proseslərdə öz xalqının mənafeyini qoruya bilir və bu gücə malikdir. Ötən il neftin qiymətinin aşağı düşməsi fonunda yanacaq-enerji sektorunda gəlirlər azalsa belə, ölkənin dinamik inkişafı dayanmayıb, ümumi daxili məhsul 1,1 faiz, qeyri-neft sənayesi 8,4 faiz artıb. Azərbaycan xarici investorlar üçün cəlbedici ölkə olaraq qalır. Keçən il ölkə iqtisadiyyatına 20 milyard dollar sərmayə qoyulub ki, bunun da yarısı xarici sərmayədir".



Son 12 ildə əməkhaqqının təqribən 5 dəfə, pensiyaların 7 dəfə artdığını diqqətə çatdıran Zeynal Nağdəliyev qeyd edib ki, bu müddətdə 3 minə yaxın məktəb istifadəyə verilib. Bu da ölkə üzrə mövcud olan məktəblərin təqribən 60 faizini təşkil edir. Eyni zamanda, 600-ə yaxın xəstəxana tikilib və təmir edilib. Bölgələrdə 41 Olimpiya idman kompleksi, 25 elektrik stansiyası, məcburi köçkünlər üçün 89 qəsəbə tikilib, 10 min kilometrdən çox yol çəkilib, 225 min insan yeni evlərə, mənzillərə köçürülüb. Ötən 12 ildə Azərbaycanda 300-ə yaxın mehmanxana tikilərək istifadəyə verilib.

Diqqətə çatdırılıb ki, dövlətimizin başçısının sosial sahədə həyata keçirdiyi siyasətin ən mühüm istiqamətlərindən biri yeni iş yerlərinin açılmasıdır. 2015-ci ildə regionların inkişaf tempi sürətlə artıb, 84 min daimi iş yeri açılıb. 2004-cü ildən bu günədək açılmış yeni iş yerlərinin sayı 1,4 milyonu keçib ki, bunun da böyük əksəriyyəti daimi iş yerləridir. Hazırda ölkə iqtisadiyyatının 80 faizdən çoxu özəl sektorda formalaşır. Təkcə 2015-ci ildə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 5240 sahibkara 250 milyon manat məbləğində güzəştli kreditlər verilib. İndiyədək güzəştli şərtlərlə 1,7 milyard manat məbləğində verilən kreditlər nəticəsində Azərbaycanda 70 mindən çox müəssisə yaradılıb.

Ardı Səh. 6

# Zeynal Nağdəliyev: "Xalqla hakimiyyətin sıx birliyi Azərbaycanın uğurlarının rəhnidir"

Əvvəli Səh. 5

Ölkə əhalisini ərzaq məhsulları ilə 100 faiz təmin etməyin, ənənəvi bazarlara daha böyük həcmlə çıxmağın və yeni bazarlara öz məhsullarımızı təqdim etməyin qarşıda duran əsas vəzifələrdən biri olduğunu vurğulayan Zeynal Nağdəliyev deyib ki, son illərdə bu məqsədlə müasir komplekslər, yeni təsərrüfatlar, logistik mərkəzlər yaradılıb. Bu da aqrar sektorda dönüşün əldə olunmasına, ixrac potensialının artmasına səbəb olub, nəticə etibarilə kənd təsərrüfatı 6,6 faiz artıb.

Qeyd olunub ki, 2015-ci ildə Azərbaycan bölgədə neft-qaz infrastrukturunun genişləndirilməsində fəal rol oynayıb, "Cənub qaz dəhlizi"nin icrası istiqamətində çox önəmli addımlar atılıb. Bu layihənin reallaşması onilliklər ərzində zəngin qaz resurslarını dünya bazarlarına ixrac etməklə iqtisadi mənfəət əldə olunmasına, valyuta axınının təmin edilməsinə, ölkənin dayanıqlı inkişafının daha da möhkəmlənməsinə imkan verəcək. Ölkəmiz regionda müasir nəqliyyat infrastrukturunun formalaşdırılmasında fəal iştirak edir. Son illər yaradılmış müasir nəqliyyat infrastrukturu Azərbaycanın Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin mərkəzinə çevrilməsində mühüm rol oynayır. Görülən tədbirlər Azərbaycanın beynəlxalq yükdaşımalarda rolunu artıracaq, iqtisadiyyatın şaxələndirilməsinin sürətləndirilməsini təmin edəcək.

Azərbaycanın regionun siyasi, iqtisadi və humanitar mərkəzi kimi artıq uzun illərdir çoxsaylı beynəlxalq tədbirlərə ev sahibliyi etdiyini diqqətə çatdıran Zeynal Nağdəliyev deyib: "Bu sahədə kifayət qədər böyük təcrübə qazanılıb. Azərbaycan birinci Avropa Oyunlarını uğurla keçirməklə dünya idman tarixində yeni bir səhifə açıb. Azərbaycan regionda və dünyada humanitar mərkəz statusunu daha da möhkəmləndirərək multikulturalizm ideyasının təşviqinə, dinlərarası və millətlərarası dialoqun inkişaf etdirilməsinə öz dəyərli töhfəsini verib".

Qarşıda duran vəzifələrdən danışan Prezident Administrasiyasının rəsmisi bildirib ki, yeni mərhələnin əsas hədəfi milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin yüksəldilməsinə nail olmaqdan, ölkədə dinamik sosial-iqtisadi inkişafın davamlılığını təmin etməkdən ibarətdir. Prezident İlham Əliyevin 2015-ci ildə ölkənin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasda, eyni zamanda, regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının ikinci ilinin yekunlarına dair konfransdakı çıxışlarında bu hədəfin reallaşması üçün zəruri olan vəzifələr müəyyənləşdirilib. Bunlara ölkənin malik olduğu iqtisadi potensialın gücləndirilməsi, o cümlədən neftdən asılı olmayan güclü Azərbaycan iqtisadiyyatının formalaşdırılması, hər bir regionun potensialından tam və səmərəli istifadə edilməsi, çoxlu sayda yeni iş yerlərinin açılmasına şərait yaradılması, sahibkarlığın inkişaf etdirilməsi, sosial xidmətlərin həcminin, keyfiyyətinin və ünvanlılığının əhəmiyyətli dərəcədə artırılması, yoxsulluğun azaldılması kimi vəzifələr daxildir. Regionlarda sənaye potensialının gücləndirilməsi, ənənəvi sənaye sahələri ilə yanaşı, yeni prioritet istehsal sahələrinin, sənaye parklarının, texnoparkların yaradılması, sənayenin innovasiyalar əsasında inkişafının təmin edilməsi istiqamətlərində ciddi işlər aparılır. Azərbaycan Prezidentinin tapşırığına əsasən ölkə üzrə 10 minlərlə, o cümlədən Sumqayıt şəhərində əhalinin məşğulluğunun artırılması məqsədilə min nəfərdən çox qeyri-məşğul əhali ödənişli əsaslarla ictimai faydalı əməyə cəlb ediləcək.

Zeynal Nağdəliyev deyib: "Sahibkarların şəffaf fəaliyyət göstərməsi xeyli dərəcədə yerli məmurlardan asılıdır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, yerlərdə icra orqanları bu il əsasən iş yerlərinin yaradılması ilə məşğul olmalıdır. Bu işlərin həyata keçirilməsində yerli icra orqanlarının üzərinə mühüm vəzifələr düşür. Cənab Prezident hər bir məmura bir daha xəbərdarlıq edərək bildirib ki, onlar xalqın xidmətçisidir. Dövlət məmurları və ailə üzvləri özlərini təvazökar aparmalıdırlar. Dövlət məmurları hesab etməməlidirlər ki, xüsusi statusları var. İnsanlara diqqət və qayğı göstərməli, onların problemlərini həll etməlidirlər. Hər bir məmur bu xəbərdarlıdan ciddi nəticə çıxarmalıdır".

Hər bir ölkənin, cəmiyyətin davamlı inkişafının ictimai-siyasi sabitliklə bilavasitə bağlı olduğunu vurğulayan Prezident Administrasiyasının rəsmisi deyib ki, yaxın regionlarda gedən prosesləri, münaqişələrin baş verdiyi dövlətlərin taleyini, tökülən qanları hər birimiz görürük. Biz ölkəmizdə hökm sürən sabitliyin qədrini və dəyərini bilməliyik. Azərbaycandakı bu sabitlik ayrı-ayrı adamlar üçün adi görünə bilər, amma dünyada baş verən hadisələrin fonunda ölkəmizdəki sabitliyin nə qədər böyük əhəmiyyət daşıdığını hər bir vətəndaş dərk etmək məcburiyyətindədir. Bu məntiqlə hər bir vətəndaşın ən vacib vəzifəsi sabitliyin qorunub saxlanmasından ibarət olmalıdır.

Zeynal Nağdəliyev çıxışının sonunda deyib: "Qarşıdakı dövrdə də Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan öz müstəqil siyasətini davam etdirəcək, ölkəmizin beynəlxalq nüfuzunun artırılması, milli təhlükəsizliyin və sabitliyin təmin olunması, iqtisadiyyatın daha da inkişaf etdirilməsi, əhalinin sosial rifahının yüksəldilməsi, milli inkişaf strategiyasının reallaşdırılması istiqamətlərində tədbirlər ardıcıl olaraq həyata keçiriləcək. Xalqla iqtidar arasında birlik, ən əsası vətəndaşların Prezident İlham Əliyevə böyük etimadı qarşımızda duran bütün problemlərin öhdəsindən gəlməyə kömək edəcək!" Daha sonra görüşdə sahibkarlar, ictimaiyyətin nümayəndələri çıxış edərək arzu və təkliflərini bildiriblər. Diqqətə çatdırılıb ki, dövlətimizin başçısı İlham Əliyev Sumqayıtın dinamik inkişafı üçün vaxtında və lazımi köməyini əsirgəməyib. Natiqlər fürsətdən istifadə edib Prezident İlham Əliyevə Sumqayıta daim göstərdiyi diqqət və qayğıya görə dərin minnətdarlıqlarını bildiriblər. Qeyd edilib ki, qlobal maliyyə böhranına və iqtisadi tənəzzülə baxmayaraq, şəhərdə iqtisadiyyat artan sürətlə inkişaf edib, makroiqtisadi sabitlik möhkəmlənib, bütün sahələrdə müsbət irəliləyiş təmin olunub. Sosial-iqtisadi sahələrdə önəmli nəticələr əldə edilib. Açıq fikir mübadiləsi şəraitində keçən görüşdə sahibkarlıq fəaliyyətinin stimullaşdırılması istiqamətində təkliflər səsləndirilib. Sumqayıtı doğma evi sayan sahibkarlar şəhərin inkişafına öz töhfələrini verməyin vacibliyini vurğulayıblar. Sonda Azərbaycan Prezidenti İlham Əliyevə ümumşəhər yığıncağı iştirakçılarının adından müraciət qəbul olunub.

# Siyavuş Novruzov: "Əli Kərimlinin yalanlarını faktlarla, şahidlərlə sübut etməyə hazıram"



***"Ötən əsrin 90-cı illərində Azərbaycan Dövlət Universitetində (indiki BDU) Əli Kərimlinin komsomola katib seçilmək üçün dostlarını necə satdığı həmin dövrdə oxuyan tələbələrin gözü qarşısında olub. Hamı bilir ki, Əli Kərimli o zaman nə oyunlardan çıxıb və o dövrdəki rektorun, yumşaq dildə desək, "xəbərçi"si olub". Bunu trend-ə Yeni Azərbaycan Partiyası İcra katibinin müavini, Milli Məclisin deputatı Siyavuş Novruzov deyib.***

S.Novruzov bildirib ki, Ə.Kərimlinin guya 90 nəfəri yığıb orduya getməsi barədə dediyi tamamilə yalandır: "Tamamilə yalan deyir. Əli Kərimli heç Kür çayından o tərəfə keçməyib. Heç təsadüfi deyil ki, həmin vaxt daxili işlər naziri işləyən İsgəndər Həmidov həmişə onu fərari adlandırırdı. Çünki Əli Kərimli sovet vaxtında hərbi xidməti həbsxana üzərində duran daxili qoşunların tərkibində keçib. Yəni bu adam, ümumiyyətlə, hərbi hissədə olmayıb, ümumiyyətlə, Dağlıq Qarabağın ərazisində və yaxud ona bitişik olan rayonlarda və kəndlərdə heç vaxt olmayıb, həmişə qaçıb gizlənib və vətən naminə əlinə silah almayıb".

Millət vəkili qeyd edib ki, 2000-ci ildə parlament seçkilərində Əbülfəz Elçibəy belə bir məsələ qaldırmışdı ki, AXCP ilə Müsavat bir yerdə namizədlərini irəli sürsünlər: "Bunu AXCP-də, Müsavatda olanlar da bilir. Siyahı belə tərtib olunmalı idi: birinci Elçibəyin özü, sonra İsa Qəmbər, Mirmahmud Fəttayev, ondan sonra bir nəfər Müsavatdan, bir nəfər AXCP-dən namizəd olurdu. Lakin Elçibəyin ağır xəstəliyindən əvvəlcədən məlumatlı olan Əli Kərimli onun Bakıda olmamasından istifadə edərək hakimiyyətlə separat danışıqlara getdi və beləliklə, "Müsavat"la olan koalisiyanı pozdu. Həmin dövrdə məhz Əli Kərimlinin əməlləri nəticəsində AXCP "yurdçular"a və "klassiklər"ə bölündü. Məhz onun iqtidarla öz müttəfiqlərindən xəbərsiz apardığı danışıqlar nəticəsində partiyası Milli Məclisdə 4 proporsional və bir majoritar yer əldə etdi. Hətta o, partiyasının proporsional seçkidə iştirak etməsini təmin edən 50 min seçici imzasının toplanmasında da hakimiyyət tərəfindən geniş və hərtərəfli dəstək gördü".

S.Novruzov deyib ki, həmin dövrdə Əli Kərimli dəfələrlə Azərbaycan Respublikasının yüksək vəzifəli rəsmi şəxsləri ilə xaricdə görüşmək arzusunda olduğunu bizlərə bəyan edib: "Görüş yeri kimi Strasburq və ya London seçilmişdi. Mən şəxsən bu danışıqların iştirakçısıyam və danışıqların aparıldığı yer Tofiq Bəhramov adına stadionun yanındakı "Xankəndi" restoranı idi. Əli Kərimlinin bu əməllərinin şahidləri də var. Bu gün o insanların bir hissəsi Milli Məclisdə təmsil olunur. Cəmil Həsənli, o dövrdə AXCP-nin funksionerləri və hazırda deputat olanlardan da bilavasitə bu danışıqlarda iştirak edənlər var. Əli Kərimli şəxsi mənafeyi naminə ömrü boyu öz dostlarını, yoldaşlarını satmaqla məşğul olub.

Əli Kərimlinin əsl mahiyyətini üzə çıxaran daha bir haşiyə çıxmaq istəyirəm. AXC 1992-ci ildə hakimiyyətə gələndə keçmiş Kommunist Partiyasının Mərkəzi Komitəsinin illərlə növbə gözləyən əməkdaşları üçün tikdirdiyi binanı qanunsuz zəbt edərək öz fəallarına paylamışdı. Belə məsələlərdə hər zaman çevik olan Əli Kərimli də oradan mənzil ələ keçirmişdi. 1993-cü ildə hakimiyyət dəyişikliyindən sonra həmin mənzillər qanuni sahiblərinə qaytarıldı. 2000-ci ildə isə Əli Kərimli Milli Məclisdə iştirakı üçün həmin mənzilin qaytarılmasını hakimiyyətlə gizli danışıqlarda əsas şərt olaraq irəli sürdü. Onun bu gülünc tələbi bizim hamımızda böyük təəccüb və təəssüf doğurdu. Çünki heç bir vicdanlı siyasətçi öz sadəlövh elektoratını görünüşdə bər-bəzəkli şüarlarla və yalançı ideyalarla bu şəkildə aldadıb gizlində mənzil davası etməzdi. O isə etdi və mənzili geri alaraq gedib Milli Məclisdə oturdu".

S.Novruzov deyib ki, Ə.Kərimlinin bu əməlləri indi də davam edir: "Kimsə onun fikrinin əleyhinə çıxırsa, söz, fikir azadlığı irəli sürürsə, dərhal həmin şəxs partiya sıralarından xaric olunur. Digər partiya sədrlərinə qarşı da çox kəskin nifrət bəsləyir və altdan-altdan mübarizə aparır, onlar haqqında xoşagəlməz yazılar yazdırır. Yəni bütün hallarda Əli Kərimli öz silahdaşlarını satıb. Hətta 2003-cü ildə prezident seçkilərində Etibar Məmmədova şəxsən yazılı şəkildə müraciət etmişdi ki, onu dəstəkləyəcək və öz namizədliyini irəli sürməyəcək. Necə deyərlər, bir siyasi partiya rəhbərinə yaraşmayacaq şəkildə, xalq dilində desək, "dilindən yazılı iltizam verib". Bu gün vaxtilə Ümummilli Lider Heydər Əliyev Milli Məclisə gələrkən ayağa qalxmamağı ilə "fəxr edən" bu şəxs dövlət başçısı və özündən yaşca qat-qat böyük olan bir insanın qarşısındakı elementar tərbiyəsizliyini özü üçün "piar"a çevirəcək qədər mənəviyyatsızdır. Yəni ki, həyatda heç vaxt ali prinsipləri rəhbər tutmayan və siyasi fəaliyyətdə müqəddəs dəyər tanımayan Əli Kərimlinin, ümumiyyətlə, şəxsi mövqeyi olmayıb, xarici təşkilatların buna dediklərini təkrar edib və ya öz yaxın ətrafını satmaqla məşğul olub. Xalq Cəbhəsi iki yerə bölünən dövrdə öz təşkilatını qeydiyyatdan keçirmək üçün iqtidarla bütün danışıqlara gedib. Mən bunun şahidiyəm, lazım olsa faktlarla, şahidlərlə sübuta yetirməyə hazıram".




# Xanhüseyn Kazımlı: “Azərbaycanın qüdrətli dövlətə çevrilməsi bəzi qüvvələri qıcıqlandırır”

Azərbaycanın qüdrətli dövlətə, ədalətli cəmiyyətə, təminatlı və sağlam vətəndaşlar diyarına çevrilməsi istiqamətində qazandığı uğurlar bəzi xarici qüvvələri qıcıqlandırır. Onlar Azərbaycanın uğurlu inkişaf prosesinə mane olmaq məqsədilə riyakarlığa əl ataraq mövcud gerçəkliklərə ikili standartlarla yanaşır, ölkəmizin daxili sabitliyinə xələl gətirmək üçün hər cür iyrənc vasitələrdən istifadə etməyə cəhd göstərirlər. Müəyyən dairələr isə belə mənfi məqamlardan istifadə edərək düzgün olmayan məlumatları xalqımıza çatdırmağa çalışmaqla xəyanətkar əməllərin iştirakçısı olurlar. AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Sosial Rifah Partiyasının (ASRP) sədri, Milli Məclisin deputatı Xanhüseyn Kazımlı fevralın 4-də “Hər birimiz bəşəriyyətin düçar edildiyi mövcud reallıqları bilməliyik” mövzusunda təşkil etdiyi mətbuat konfransında deyib. Xanhüseyn Kazımlı Azərbaycanın dünya ölkələrini işgüzar əməkdaşlığa və terrora qarşı birgə mübarizəyə çağırışlarından, bu istiqamətdə yorulmadan həyata keçirdiyi tədbirlərdən danışıb. Qeyd edib ki, Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində Azərbaycan ərazilərinin 20 faizi hələ də işğal altındadır. Partiya sədri bir milyondan çox qaçqın və məcburi köçkünün həyat tərzinin yaxşılaşdırılmasının ötən 25 il ərzində ahəngdar təmin edilməsi, Azərbaycan Silahlı Qüvvələrinin hərbi qüdrətinin artırılmasına xüsusi diqqət yetirilməsi və s. sahələrdə uğurla həyata keçirilən tədbirlərdən bəhs edib. X.Kazımlı gənc Azərbaycan dövlətinin müstəqilliyinin ilk illərində işğala məruz qalmasına baxmayaraq, qazandığı bu uğurlar fonunda hazırda Avropa ölkələrinin təxminən eyni sayda miqrant axını ilə əlaqədar ciddi böhranla üz-üzə qaldığını xüsusi vurğulayıb. Partiya sədri daha sonra jurnalistlərin suallarını cavablandırıb.

# Muxtar respublikada daşınmaz əmlakın qeydiyyatı sadələşdirilib



Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin səyyar xidmət qrupu tərəfindən muxtar respublikanın ucqar kənd yaşayış məntəqələrində əhaliyə xidmət göstərilir. Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, bu ildən etibarən vətəndaşlara səyyar qaydada göstərilən xidmətlərin sayı artırılıb. Daşınmaz əmlak barəsində notariat qaydasında təsdiq edilmiş müqavilələr və vərəsəlik hüququ haqqında şəhadətnamələr əsasında hüquqların qeydiyyata alınması, daşınmaz əmlakın texniki pasportunun hazırlanması, torpaq sahəsinin plan-ölçüsünün hazırlanması, daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmış əmlaklara məhdudiyyət və yüklülüyə dair arayışların verilməsi üçün sənədlərin qəbuluna başlanılıb. Qeyd edək ki, ötən il səyyar xidmət qrupu tərəfindən 85 yaşayış məntəqəsində 1502 vətəndaşın müraciətinə baxılıb. Səyyar xidmət zamanı yaşadıqları ərazidə vətəndaşların ərizələri qəbul olunaraq məlumat bazası ilə dəqiqləşdirilib, elektron sistemə daxil edilərək texniki sənədlər hazırlanıb. Vətəndaşlara daşınmaz əmlak üzərində əvvəllər yaranmış hüquqlarla bağlı verilmiş mülkiyyət sənədləri - torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamələr, dövlət aktları, qeydiyyat vəsiqələri daşınmaz əmlakın dövlət reyestrindən çıxarışla əvəz edilib. Həmçinin, ahıl, sağlamlıq imkanları məhdud insanlara onların yaşadıqları ünvanlarda xidmət göstərilir.

# Arzu Rəhimov Cəlilabadda vətəndaşları qəbul edəcək



Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-leytenant Arzu Rəhimov fevralın 18-də saat 10:00-da Xidmətin Cəlilabad Rayon Şöbəsinin inzibati binasında Biləsuvar, Cəlilabad və Masallı rayonlarının sakinlərini qəbul edəcək. Dövlət Xidmətindən AZƏRTAC-a bildiriblər ki, qəbula yazılmaq istəyən vətəndaşların fevralın 17-dək bu qurumun adları qeyd olunan rayon şöbələrinə müraciət etmələri və qeydiyyatdan keçmələri zəruridir.

# Yaşar Aydəmirov: “Azərbaycanın sərəncamında olan hərbi texnika Ermənistandakından qat-qat üstündür”



Ehtiyatda olan general-leytenant, keçmiş korpus komandiri Yaşar Aydəmirov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zamanı dinc azərbaycanlı əhaliyə qarşı döyüşlərdə qaniçənliyi, amansızlığı ilə “şöhrət” tapmış “Kommandos” ləqəbli Ter-Tadevosyanın bu günlərdə erməni jurnalistləri qarşısında çıxışında səsləndirdiyi fikirlərə münasibət bildirib. Yaşar Aydəmirov AZƏRTAC-ın sorğusuna cavab olaraq deyib ki, hərbi məsələlərdən başı çıxmayan, yazı-pozu ilə məşğul olan jurnalist qardaşlarına bu “qəhrəman” “Azərbaycanın birtərəfli qaydada məhv ediləcəyi” barədə pafoslu, hədə-qorxu dolu fikirlərini çatdırıb. Onun sözlərinə görə, Ermənistanın və “Dağlıq Qarabağ” ermənilərinin sərəncamında guya “sınaqdan çıxmış texnika” və “3-4 neft-qaz platformasına tuşlanmış hansısa mifik raketlər mövcuddur”.

Gülüş doğuran və təəccübləndirən hal isə odur ki, bəyan etdiyi bu sayıqlamaları o, BMT Nizamnaməsinin 51-ci maddəsindəki “ölkəyə hücum olduğu təqdirdə özünümüdafiə hüququ” ilə pərdələməyə cəhd göstərir. Qeyd edək ki, yalnız təhdid olduğu halda deyil, birbaşa işğala məruz qaldığı halda da bu hüquqdan istifadə etməyə əsas var. Amma bu üzdəniraq, qəddarlığı ilə öyünən “keçmiş döyüşçü” dediklərindən eyforiyaya qapılaraq bütün məsələləri baş-ayaq çevirir. Hətta öz yalanlarına, uydurmalarına Ermənistan prezidentinin və müdafiə nazirinin guya bu haqda Azərbaycanı nə vaxtsa “xəbərdar” etmələri barədə mülahizələrini də əlavə edir.

Yaşar Aydəmirov bildirib: “Cənab Ter-Tadevosyan, nəyisə qarışdırmırsınız ki?! Çünki məhz siz təcavüzkar siyasət yeridib Azərbaycan torpaqlarını işğal etmisiniz, dinc əhalini qanına qəltan edərək bir milyondan artıq insanın doğma yurd-yuvasından didərgin düşməsinə səbəbkarsınız”. Mən ağlını itirmiş erməni “sərkərdəsi” və sizə bənzər digər “strateqlər”lə heç bir polemikaya qoşulmadan sadəcə olaraq soruşmaq istəyirəm: Xankəndidən ən yaxın platformayadək 300 kilometrdən artıq məsafə olduğu halda siz neft-qaz platformalarını necə və nə ilə məhv etməyə hazırlaşırsınız?! Siz heç olmasa, istifadənizdə olan raket sistemlərinin məsafə üzrə zərbə endirmə imkanlarını öyrənin və sonra danışın! Bu imkanlar R-300 kompleksində - maksimum 300 kilometr, sahə üzrə isə 100x100 metrdir. Sizin diqqətlə yoxladığınız texnikanın sırasında hədəfləri dəqiq məhv etmək imkanlarına malik olan bir dənə də olsun nümunə yoxdur!

Məgər Gürcüstandan keçən neft boru kəmərinin partladılması nəticəsində infrastruktura ciddi ziyan dəyə bilər?! Əgər fərz etsək ki, sizin “igid pəhləvan-diversantlar və yaxud yoxladığınız texnika” beton hasarla mühafizə olunan boru kəmərini sıradan çıxarmağa nail olsa belə, birincisi, neftin nəqlini dayandıran avtomatik sistem işə düşür. İkincisi isə bu cür qəzaların, nasazlıqların nəticələri xüsusi qüvvələr və vasitələrlə dərhal aradan qaldırılır. Nəhayət, nəzərə almaq lazımdır ki, Azərbaycanın sərəncamında olan, sınaqdan çıxmış zərbə və məhvetmə vasitələri Ermənistandakından qat-qat üstündür. Onları yerinə oturtmaq, düşmənə sarsıdıcı zərbələr endirmək və sağalmaz yara vurmaq üçün həmin texnika hədəfə tuşlanaraq hazır vəziyyətdədir. Bu zərbələrdən hətta sizin sevimli paytaxtınız - “ən gözəl” İrəvan şəhəri də yayına bilməz. Əgər biz Dağlıq Qarabağ probleminə həll də səbir, təmkinlə yanaşırıqsa, şübhəsiz ki, bu, öz qərarlarında beynəlxalq hüququn normalarına və prinsiplərinə, BMT-nın münaqişəyə dair qətnamələrinin tələblərinə hörmətlə yanaşan Prezidentimizin alicənablığının, müdrikliyinin və xalqımızın sülhsevərliyinin nəticəsidir”.

# “”Xocalıya ədalət” kampaniyası çərçivəsində böyük işlər görülür”

“Həmişə olduğu kimi, bu il də ölkənin bütün rayon və şəhərlərində yerləşən idarə və müəssisələrdə Xocalı soyqırımı ilə bağlı anım tədbirləri keçiriləcək. Biz bir daha Xocalıda qətlə yetirilmiş doğmalarımızı hörmətlə yad edəcəyik”. Bu fikirləri SİA-ya açıqlamasında Şuşa Rayon İcra Hakimiyyətinin başçısı, Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması İctimai Birliyinin sədri Bayram Səfərov deyib. O bildirib ki, Xocalı soyqırımının dünyada tanıdılması ilə bağlı böyük işlər görülür: “Artıq dünyanın bir neçə ölkəsinin parlamenti Xocalı soyqırımını qəbul edib. Bəzi beynəlxalq təşkilatlarda Xocalı soyqırımının tanınması ilə bağlı qərarlar qəbul edilib. Dünya ictimaiyyətinə ermənilər tərəfindən törədilmiş Xocalı soyqırımı barədə



məlumatlar çatdırılır. Bu işdə xüsusilə Heydər Əliyev Fondunun vitse-prezidenti, Fondun Rusiya nümayəndəliyinin rəhbəri Leyla Əliyevanın böyük əməyi var. Onun rəhbərliyi ilə keçirilən “Xocalıya ədalət” kampaniyası artıq neçə illərdir ki, çox böyük işlər görür. Ümumiyyətlə, əvvəlki illərlə müqayisədə bu yöndə fəaliyyət gücləndirilib. Hər bir azərbaycanlı öz sahəsi üzrə Xocalı soyqırımı həqiqətlərini dünyaya çatdırmağa çalışmalıdır. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin dünya ölkələrində Xocalı soyqırımı ilə bağlı keçirdiyi tədbirlər təqdirəlayiqdir”. Bayram Səfərovun sözlərinə görə, dünyada ədalətsizlik, ikili standartlar, siyasi oyunlar davam edir: “Günümüzdə də böyük faciələr yaşanır. Xaçpərəstlərin bir-birinə dəstəyi, xristian təəssübkeşliyi hökm sürür. Azərbaycan xalqı yalnız öz gücünə inanmalı, lideri Cənab İlham Əliyevin ətrafında sıx birləşməli, onun apardığı siyasəti dəstəkləməli, Ali Baş Komandanın əmrinə hər an hazır olmalıdır.

Möhtərəm Prezidentimiz dünyada baş verən bütün prosesləri çox düzgün analiz edir. ATƏT-in Minsk Qrupunun həmsədrləri təmsil etdikləri dövlətlərin diktəsi ilə hərəkət edir. Onlar Ermənistanın vaxtı uzatmasına, işğalçılığını davam etdirməsinə göz yumur. Cənab Prezidentimiz də bunu ən yüksək tribunalardan dəfələrlə səsləndirib. İki ölkə Prezidentlərinin sonuncu görüşündən sonra da ölkə başçımızın dediyi kimi, bu görüşlər formal xarakter daşıyır. Ona görə də biz Ali Baş Komandanımızın döyüş əmrinə hər an hazır olmalıyıq”.

## "Azərbaycan vətəndaşları öz Prezidentinin yanındadır və dövlət başçısının qəbul etdiyi qərarları dəstəkləyir"



"Dünyada baş verən siyasi qarşıdurmaların və siyasi rəqabətin nəticəsi olaraq 2015-ci ildə dünyanın iqtisadi tarazlığında ən mühüm komponentlərdən biri kimi çıxış edən enerji daşıyıcılarının qiymətində çox ciddi, radikal dəyişikliklər baş verdi. Dünya iqtisadiyyatı tarixində, bəlkə də, birinci dəfə idi ki, siyasi qərarlar iqtisadi sektorun fəaliyyətinə bu qədər ciddi təsir göstərirdi. Bu isə özlüyündə yeni iqtisadi şərtlər ortaya qoydu, iqtisadiyyatı neftlə əlaqəli olan ölkələrdə pul-maliyyə sektoruna da ciddi zərbə vurdu". Bu fikirləri Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu deyib.

H.Babaoğlu bildirib ki, 2008-ci ildən dünyada, Avropada başlayan böhran indi Azərbaycan iqtisadliyyatına müəyyən təsir göstərir. Onun sözlərinə görə, yaranmış şərait Azərbaycan iqtisadiyyatının rəqabət və müqavimətqabiliyyətli olduğunu sübuta yetirdi.

"Bir daha aşkar oldu ki, milli resursları səfərbər etməklə yeni iqtisadi münasibətlərin daha effektiv və keyfiyyətli şəkildə təşkil olunması üçün şərait var. O da bəlli oldu ki, Azərbaycan vətəndaşları öz Prezidentinin yanındadır və dövlət başçısının qəbul etdiyi qərarları dəstəkləyir. Faktlara diqqət yetirsək, görərik ki, Azərbaycanla müqayisədə MDB məkanında neft ölkələrinin milli valyutası bir neçə dəfə devalvasiyaya uğrayıb. Təbii ki, yaranmış vəziyyət qeyri-iqtisadi faktorlarla bağlıdır. Doğrudan da, ənənəvi olaraq tarix boyu siyasət iqtisadi maraqların arxasınca gedib. Elə bu gün də belədir. Ancaq kiçik bir fərqlə. Hazırki mərhələdə müyyən beynəlxalq qüvvələr siyasi-hərbi qərarlar qəbul edərək faktiki olaraq xalqların, ölkələrin milli sərvətlərini talan edir. Ancaq bu tendensiya uzunmüddətli ola bilməz. Çünki inkişafın və rəqabətin məntiqinə ziddir. Ona görə də yaxın və orta perspektivdə yeni real iqtisadi-siyasi münasibətlərin formalaşması bir zərurət kimi ortaya çıxacaq"- deyə, H.Babaoğlu vurğulayıb.

## "SOCAR Qaradağ və Pirallahı rayonlarında gənclər üçün kooperativ binalar inşa edəcək"



Bakının Qaradağ və Pirallahı rayonlarında SOCAR-a məxsus ərazilərdə şirkətdə çalışan gənc mütəxəssislər üçün kooperativ binalar və şəhərciklər inşa edəcək. AZƏRTAC xəbər verir ki, bu barədə SOCAR-ın prezidenti Rövnəq Abdullayev gənc neftçilərlə keçirdiyi görüşdə məlumat verib. R.Abdullayev deyib: "Biz maksimum çalışırıq ki gənc mütəxəssisləri, SOCAR-ın Xarici Təqaüd proqramının və hətta Daxili Təqaüd proqramının iştirakçısı olan gəncləri də ev növbəsinə götürmüşük. Qaradağ və Pirallahı rayonlarında SOCAR-a məxsus ərazilərdə kooperativ binaların tikintisi və şəhərciklərin salınması nəzərdə tutulur. SOCAR bütün gənc mütəxəssisləri evlə təmin etməyə çalışacaq. Bu prosesə isə gələn həftədən start veriləcək. Artıq müvafiq idarələrə tapşırıqlar verilib, hazırlıq işləri aparılır. SOCAR-ın bütün idarələri həmin ərazilərdə torpaq sahəsi götürə biləcək və tikinti işləri aparılacaq. Mənzillər isə uzunmüddətli kredit sistemi əsasında veriləcək".

# Səlim Müslümov Kürdəmir rayon ictimaiyyətinin nümayəndələri ilə görüş keçirib

*"Əhalinin gəlirləri 7 dəfə, adambaşına düşən gəlirlər 6 dəfə, orta aylıq əmək haqqının 5,6 dəfədən çox artıb"*



***Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Səlim Müslümov Kürdəmir rayon ictimaiyyətinin nümayəndələri ilə görüş keçirib. İctimaiyyət nümayəndələri ilə görüşdə nazir S.Müslümov ötən dövrdə Azərbaycan Prezidenti Cənab İlham Əliyevin mükəmməl islahatlar kursu nəticəsində ölkəmizin uzunmüddətli sosial-iqtisadi tərəqqisinin stimullaşdırılması üçün güclü əsasların formalaşdığını bildirib: "Son 12 ildə 3,4 dəfə iqtisadi artımın əldə***



***olunduğu, milli iqtisadiyyata 200 milyard dollar investisiyanın qoyulduğu respublikada özəl sektorun və regionların inkişafı, müasir infrastrukturun yaradılması, aqrar sahənin canlanması şəraitində iqtisadiyyatın şaxələndirilməsi proseslәri uğurla həyata keçirilib.***

Nazir qeyd edib ki, bu gün ölkə əhalisinin 23 faizi pensiya, sosial müavinət və Azərbaycan Prezidentinin aylıq təqaüdləri ilə təmin olunur: "Ötən il də bütün sosial proqramlar uğurla davam etdirilib, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən bu dövrdə 112663 aztəminatlı ailə ünvanlı dövlət sosial yardımı, 463 min nəfərədək şəxs aylıq və birdəfəlik sosial müavinətlə, 54,6 min nəfərdən çox insan Azərbaycan Prezidentinin aylıq təqaüdü, 15 min nəfər səyyar və stasionar şəkildə sosial xidmətlərlə təmin edilib. Həmçinin, keçən il 400 nəfər müharibə əlili və onlara bərabər tutulan şəxsə "Naz-LİFAN" markalı minik avtomobili, 281 müharibə əlili və şəhid ailəsinə mənzil verilib. Gözdən əlil şəxslərə 132 mənzilli, dövlət uşaq müəssisələrini bitirən və valideyn himayəsindən məhrum kimsəsiz gənclərə 120 mənzilli yaşayış binası təqdim edilib".

## "Ödənişli ictimai işlər təşkil olunacaq, işçi qüvvəsinin əmək bazarında rəqabətədavamlı peşələrə yiyələnmələri üçün zəruri addımlar atılacaq"

S.Müslümov, eyni zamanda nazirliyin xətti ilə 13,5 mindən çox şəxsə bərpa-müalicə və protez-ortopedik xidmətlər göstərildiyini, 265 nəfərin xaricə ixtisaslaşmış bərpa müalicəsinə göndərildiyini, 13,6 min nəfərdən çox əlilliyi olan şəxsin və şəhid ailəsinin birdəfəlik maddi yardımla, 5,2 min nəfərə yaxın əlilliyi olan şəxsin sanator-müalicə müəssisələrinə və sağlamlıq-istirahət mərkəzlərinə yollayışlarla təmin olunduğunu bildirib: "Sosial təminat sisteminin əhatə dairəsi də getdikcə genişlənib və son illərdə beşdən çox uşağı olan qadınların uşaqlarının hər birinə görə aylıq sosial müavinətin, I qrup əlilliyə görə sosial müavinət alan şəxslərə, Əfqanıstanda beynəlmiləl borcunu yerinə yetirərkən həlak olmuş hərbi qulluqçuların ailə üzvlərinə də Prezidentin aylıq təqaüdünün təyin olunaraq ödənilməsi həyata keçirilir".

S.Müslümov sosial müdafiə tədbirlərinin Kürdəmir rayonunu da əhatə etdiyini, rayonda sosial cəhətdən həssas qruplardan olan şəxslərin də sosial təminatının daim gücləndirildiyini, müvafiq təbəqələrdən olan rayon sakinlərinin pensiya, sosial müavinət və təqaüdlərlə, aztəminatlı ailələrin ünvanlı dövlət sosial yardımı ilə təmin edildiklərini bildirib. Nazir, həmçinin rayonda müharibə əlilləri və şəhid ailələri üçün hazırda 8 fərdi yaşayış evinin tikilməkdə olduğunu, müharibə əlilləri və onlara bərabər tutulanların dövlət büdcəsi hesabına minik avtomobili ilə təmin edildiklərini, bu sosial müdafiə tədbirlərinin qarşıdakı dövrdə də davam etdiriləcəyini qeyd edib.

Kürdəmir rayon icra hakimiyyətinin başçısı Ceyhun Cəfərov çıxış edərək, Azərbaycan Prezidenti Cənab İlham Əliyevin regionların inkişafına diqqət və qayğısı nəticəsində Kürdəmir rayonunda da tikinti-quruculuq və abadlıq işlərinin geniş vüsət aldığını, yeni müəssisələrin və iş yerlərinin açıldığını vurğulayıb. C.Cəfərov 2015-ci ildə Kürdəmir rayonunun sosial-iqtisadi inkişafı istiqamətində görülən işlərdən bəhs edərək, "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının ikinci ilinin yekunlarına həsr olunan konfransda dövlət başçısı tərəfindən müəyyən edilən vəzifələrin Kürdəmir rayonunda da uğurla icra ediləcəyini diqqətə çatdırıb.

Kürdəmir rayon ictimaiyyətinin nümayəndələri əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində aparılan işlərdən, xüsusən son vaxtlarda bu məqsədlə növbəti fərman və sərəncamların imzalanmasından, aztəminatlı ailələrə dövlət qayğısının artırılmasından, yeni iş yerlərinin yaradılması üçün həyata keçirilən tədbirlərdən razı qaldıqlarını vurğulayıblar. Rayon sakinləri sosial müdafiə sahəsinə yüksək diqqət və qayğı göstərdiyinə görə Azərbaycan Prezidenti Cənab İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

***Samir***

## Yanvarda Ceyhan limanından 2,8 milyon tondan çox Azərbaycan nefti dünya bazarına çıxarılıb

Bu ilin yanvarında Ceyhan limanından 2 milyon 848 min 91 ton Azərbaycan nefti dünya bazarına yola salınıb. SOCAR-ın mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bu həcmin 1 milyon 510 min 914 tonunu Dövlət Neft Fondunun (ARDNF) nefti təşkil edib. Ümumiyyətlə, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri - BTC istismara verilən gündən bu il fevralın 1-nə kimi Ceyhan limanından 294 milyon 41 min 863 ton Azərbaycan nefti dünya bazarına çıxarılıb.

# Amerika dərgisindən Azərbaycana qarşı növbəti provokasiya

***Amerikanın "Quartz online" internet dərgisində Azərbaycanın BVF və Dünya Bankından 4 milyard kredit istəməsi barədə məlumat dərc olunub. Məqalədə yazılır ki, BVF və Dünya Bankı ən korrupsioner iki ölkəyə yardım göstərməyə hazırlaşır: "Neft qiymətlərinin son 19 ayda düşməkdə davam etməsi qlobal enerji sektoruna baha başa gəlir. Hazırda beynəlxalq banklar Azərbaycan və Nigeriyaya yardım əlini uzadıb. Azərbaycan Beynəlxalq Valyuta Fondu ilə 4 milyard, Nigeriya isə Dünya Bankı və Afrikanın İnkişaf Bankı ilə 3,5 milyard dollarlıq kredit üzrə müzakirələr aparır".***

Bir neçə gün öncə Azərbaycanın xaricdən borc istəməsi ilə bağlı ortaya atılan əsassız iddialar alt-üst olandan sonra mənfur qüvvələr yenidən bu məsələni gündəmə gətirməklə Azərbaycanın uğuruna kölgə salmağa çalışırlar. Bir müddət əvvəl ABŞ xüsusi xidmət orqanlarının mətbuat vasitəsi olan "Financial Times" qəzeti Beynəlxalq Valyuta Fondu və Dünya Bankının ucuz neft qiymətləri ilə mübarizə aparan Azərbaycana 4 milyard dollarlıq yardım paketi ayırmağı nəzərdən keçirdiyi barədə xəbər yaymışdı.

Bu il yanvarın 29-da Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Gənclərinin Birinci Forumunun 20 illiyi münasibətilə ölkə gənclərinin bir qrupu ilə görüşündə Azərbaycanın xaricdən borc istəməsi ilə bağlı səslənən iddialara cavab verərək bildirmişdi ki, Azərbaycanın xarici maliyyə qurumlarından yardım istəməsi ilə bağlı son günlərdə xarici mətbuatda gedən yazılar yalandır. Maliyyə naziri Samir Şərifov da mətbuat konfransında jurnalistlərə açıqlamasında məsələyə münasibət bildirərkən qeyd etmişdi ki, Beynəlxalq Maliyyə Fondu, Dünya Bankı və Asiya İnkişaf Bankının nümayəndələri ilə Bakıda görüş keçirilir: "Amma hər hansı 4 milyard dollar kredit alınması yoxdur. Vəziyyət o qədər acınacaqlı deyil ki, kimdənsə təcili borc alaq.



Əksinə, biz başqa dövlətlərə borc veririk. Çünki bizim maliyyə resurslarımız yetəri qədərdir".

**ABŞ prezidenti qeyd edirdi ki, "ABŞ-da pulu olan hər kəs prezident ola bilər, sadəcə rüşvət verən əl böyük olmalıdır...".**

Azərbaycanın Nigeriya ilə müqayisə olunması isə nə qədər gülünc iddia olduğu göz önündədir. Əvvəla, 144 milyon əhalisi olan Nigeriyada bütün sahələr üzrə xaos hökm sürür. Nigeriyada 410 dildən istifadə olunur, müxtəlif dilləri daşıyan tayfalar arasında hər gün ölümlə, kütləvi qətliamlarla nəticələnən silahlı qarşıdurmalar baş verir. Dolayısı ilə desək, bu amil ABŞ-da vətəndaşla polis arasındakı münasibətləri daha çox xatırladır. Azərbyacanda isə heç bir silahlı insident qeydə alınmır. İkincisi, Qərbi Afrika dövləti olan Nigeriyada islama43,6 faiz, (protestanlıq 40,8 faiz, pentakostalizm 18 faiz, anglikanizm 12,3 faiz), katoliklər 9,3 faiz, animizma5,9 faiz, təşkil edir və elə bir gün yoxdur ki, müxtəlif dinlərin daşıyıcıları arasında toqquşmalar baş verməsin. Azərbaycanda isə tolerantlıq mövcuddur. Üçüncüsü, Nigeriyanın sərvətləri uzun illərdir ki, ABŞ-a məxsus müxtəlif şirkətlər vasitəsilə talan olunur. Nigeriya bataqlıqlarından bu gün də ABŞ xüsusi işgəncə metodu kimi istifadə edir. Eyni zamanda bu ölkədə ABŞ-a məxsus onlarla gizli həbsxanalar mövcuddur. Təkcə meşə təsərrüfatından əldə olunan gəlirlər ABŞ büdcəsinə milyardlar axıdır. Görünən budur ki, Nigeriyada mövcud siyasi rejimlə ABŞ dövləti arasında soyuq dövr siyaseti başlayıb. Həmçinin, iki müsəlman dövlətinin "ilk iki yer"ə göstərilməsinin də əsl məqsədləri bəllidir. Azərbaycan kimi dövlətin on illərlə xalqa xərclədiklərini ABŞ dövləti bir ayın içərisində Suriyada, İraqda, Fələstində, Əfqanstanda uşaqların, qocaların, qadınların qətlə yetirilməsinə xərcləyir. Nigeriyanın Lagos və Kano hava limanları ən işlək millətlərarası hava limanı olmasına baxmayaraq, həm də ABŞ tərəfindən Afrikadan Avropoya narkotiklərin, qanunsuz silah-sursatların daşındığı əsas marşrutdur. Bir sözlə, Nigeriya Afrika dövlətidir, Azərbaycan isə dünyanın ən stabil, dinamik iqtisadiyyata malik dövlətlərindən biridir. Azərbaycanın dünyaya tolerantlıq və demokratiya beşiyi olması dəfələrlə sübut olunmuşdur. Korrupsiya məsələsinə gəlincə, dünyada ən çox korrupsiya halları seçkilər vaxtı ABŞ-da qeydə alınır. Hələ 1956-cı ildə ABŞ-ın 34-cü prezidenti Duayt Eyzenhauer özünün "Prezidentlik məktəbi"ndə yazırdı ki, "ABŞ-da pulu olan hər kəs prezident ola bilər, sadəcə rüşvət verən əl böyük olmalıdır...". Azərbaycan bu gün terrorizmə qarşı sərt mübarizə aparan əsas dövlətlərdən biridir. Həmçinin, son illərdə Azərbaycanda korrupsiya hallarının qarşısının alınması məqsədilə görülən işlər Qərb dairələri tərəfindən, eləcə də ABŞ-ın müvafiq institutları tərəfindən təqdir olunmuşdur. Buna görə də "Quartz online" internet dərgisində dərc olunan materialda Azərbaycanla bağlı səsləndirilən fikirlər böyük təəssüf hissi doğurur. Hesab edirik ki, bu, dünyanın böhran məngənəsində sıxıldığı bir ərəfədə Azərbaycanın bütün mənfi hallardan, böhrandan sığortalanmasına olan qısqanc münasibətin təzahürüdür.

*S.FEYRUZOV*

# "İki sahil" qəzetinin dəstəyilə Nizami rayonunda inşa müsabiqəsinə start verildi

***Xocalı soyqırımının 24-cü ildönümü ilə əlaqədar Nizami rayon İcra Hakimiyyətinin və Yeni Azərbaycan Partiyası (YAP) Nizami rayon təşkilatının birgə təşkilatçılığı, "İki sahil" qəzetinin dəstəyilə "Xocalı - unudulmayan qan yaddaşımız" mövzusunda inşa müsabiqəsinə start verildi.***




Bununla əlaqədar YAP Nizami rayon təşkilatının qərargahında keçirilmiş iclasda çıxış edən YAP Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva, Nizami rayon İcra Hakimiyyəti başçısının müavini Gülnaz İsrafilova bildiriblər ki, Xocalı soyqırımı insanlığa qarşı ən dəhşətli cinayətdir. Ermənilər bu faciəni törətməklə xalqımızı qorxutmaq, vahimə içində saxlamaq, onun mübarizə əzmini qırmaq istəyirdilər. Lakin bu hadisələr Azərbaycan xalqının əzmimizi qıra bilməyib, əksinə, müstəqillik arzularımızı, vətənpərvərlik hislərimizi daha da alovlandırıb.

Müsabiqə komissiyasının sədri, "İki sahil" qəzetinin baş redaktoru, Əməkdar jurnalist Vüqar Rəhimzadə qeyd edib ki, bu cür müsabiqələrlə həm gənc nəslin Azərbaycanın tarixilə bağlı geniş maariflәndirilməsinə, həm də onların bilik və bacarıqlarının, jurnalistikaya olan maraqlarını, potensiallarını üzə çıxarmağa çalışırıq: "İnşa yazı müsabiqəsinə iki dildə - Azərbaycan və rus dillərində yazılar qəbul ediləcəkdir. Bununla da biz cənab Prezident İlham Əliyevin multikulturalizm siyasətinə, ölkəmizdəki tolerant dəyərlərə verdiyimiz önəmi bir daha qabardacağıq. Eyni zamanda, bununla bir daha Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başladılan "Xocalıya ədalət!" kampaniyasına gənc nəslimizin dəstəyi ifadə edilmiş olacaqdır".

Məlumat üçün bildirək ki, inşa müsabiqəsi Nizami rayonunun 30-ya yaxın təhsil müəssisələri arasında keçiriləcək və iki dildə qəbul ediləcək yazılar yaradılmış xüsusi komissiya tərəfindən yoxlanılacaqdır. Müsabiqənin nəticələrilə bağlı isə tədbir keçiriləcəkdir.



# Tarif (qiymət) Şurasının iclasında daha 600-dən çox dərman vasitəsinin qiyməti təsdiqlənib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi prosesi davam etdirilir. Fevralın 4-də Tarif (qiymət) Şurasının növbəti iclası keçirilib və daha 600-dən çox dərman vasitəsinin qiyməti təsdiqlənib. İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, ümumilikdə, indiyədək Şura tərəfindən dərman vasitələrinin ticarət adı, təsiredici maddəsinin adı, dozası, farmasevtik forması, ticarət qablaşdırması, qablaşdırma miqdarı, istehsal ölkəsi nəzərə alınmaqla 5651 dərman vasitəsinin topdan və pərakəndə satış qiyməti və qüvvəyə minmə tarixi təsdiq edilib ki, bunlardan 3711 dərman vasitəsi təsdiq edilmiş qiymətlərlə artıq satışdadır. Qiymətləri təsdiqlənmiş digər 1940 dərman vasitəsinin yeni qiymətləri bu il fevralın 25-dən qüvvəyə minəcək. İndiyədək qiymətləri tənzimlənmiş dərman vasitələrinin manatın məzənnəsində baş verən dəyişikliklərdən əvvəl satışda olan qiymətləri ilə müqayisədə belə 20 faizinin qiyməti 2 dəfədən çox, 8 faizinin qiyməti 3 dəfədən çox aşağı salınıb, ümumilikdə 60 faizinin qiymətləri endirilib.

Tarif (qiymət) Şurasının müvafiq qərarlarına əsasən, hər qrup təsiredici maddə üzrə yeni qiymətlərin qüvvəyə minmə tarixindən etibarən həmin qrupa aid olan, lakin qiymətləri hələlik təsdiq edilməyən dərman vasitələrinin satışı yalnız onların qiyməti təsdiq edildikdən sonra həyata keçirilə bilər.

Şuranın iclasında, həmçinin yeni təsiredici maddələr üzrə dərman vasitələrinin qiymətlərinin təsdiqlənməsi üçün sənədlərin (bəyannamələrin) qəbulu elan olunub və fevralın 22-si sənədlərin qəbulu üçün son tarix olaraq müəyyən edilib. Qərarlar və dərman vasitələrinin siyahısı Tarif (qiymət) Şurasının rəsmi internet saytının (www.tariff.gov.az ) "Şuranın qərarları" və "Dərman vasitələri" bölmələrində yerləşdirilib (keçidhttp://tariff.gov.az/documents/DVA.pdf ).

# Millət vəkili: "Azərbaycan-Britaniya münasibətlərinin dərin kökləri var"



"Cənab Prezident İlham Əliyevin Böyük Britaniyaya səfəri qarşılıqlı münasibətlərin həm ikitərəfli, həm də çoxtərəfli formatı baxımından böyük əhəmiyyət kəsb edir". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili, professor Musa Qasımlı deyib. Deputat qeyd edib ki, Azərbaycan-Böyük Britaniya münasibətlərinin dərin tarixi kökləri var: "Məhz İngiltərinin tövsiyəsi əsasında 1920-ci il 11 yanvarda dövlət müstəqilliyimiz tanınıb. Bu addımı xalqımız heç bir zaman unutmur. Dövlət müstəqilliyi bərpa edildikdən sonra isə ikitərəfli münasibətlər müxtəlif istiqamətlər üzrə inkişaf edib, böyük yol keçib və təməlləri möhkəmdir". M.Qasımlı vurğulayıb ki, səfər çoxtərəfli format baxımından da əhəmiyyətlidir: "Suriya münaqişəsinə həsr edilmiş beynəlxalq konfransa cənab Prezidentin dəvət edilməsi dövlətimizin artan beynəlxalq nüfuzunu, yerinin möhkəmlənməsini və Yaxın Şərqdəki münaqişələrin həllində böyük potensialının olduğunu göstərir".

# Səhiyyə Nazirliyi: Azərbaycanda "donuz qripi" qeydə alınmayıb

***2015-ci ilin dekabr ayından bəri bir çox ölkələrdə, eləcə də Azərbaycanla qonşu ölkələrdə müşahidə olunan gərgin epidemioloji vəziyyətə baxmayaraq, ölkəmizdə "donuz qripi" qeydə alınmayıb. Bununla belə respublikada "donuz qripi"nə qarşı mübarizə üçün bütün zəruri dərman preparatları var.***

AZƏRTAC xəbər verir ki, bu sözləri Səhiyyə Nazirliyinin Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin direktor müavini Afaq Əliyeva ölkədə epidemioloji vəziyyətə və virus xəstəliklərinin profilaktikası istiqamətində görülən işlərə dair mətbuat konfransında səsləndirib. O deyib: "Bununla belə yaranmış vəziyyət profilaktik, müalicəvi xarakterli və epidemiya əleyhinə tədbirlərin həyata keçirilməsi üçün qüvvə və ehtiyatların səfərbərliyini tələb edir. Bu məqsədlə nazir Oqtay Şirəliyev "Donuz qripi xəstəliyinə qarşı profilaktik tədbirlərin gücləndirilməsi barədə" əmr imzalayıb. Respublikanın tibb müəssisələrinin rəhbərlərinə səhiyyə "donuz qripi" haqqında məlumatlandırmaq tapşırılıb. Sənəddə virusa yoluxmaqda şübhəli şəxslərin, o cümlədən uşaqların və böyüklərin xəstəxanaya yerləşdirilməsi üçün xüsusi palataların ayrılması, zəruri hallarda tibb müəssisələrində məhdudlaşdırıcı rejimin tətbiqi, tibb heyətinin fərdi qorunma vasitələri ilə təmini, habelə dezinfeksiya işlərinin aparılmasına xüsusi diqqət




ayırmağın zəruriliyi qeyd edilib. Məsələn, əmrin icrası ilə əlaqədar bu ilin təkcə yanvar ayında 300-dən çox adam müayinə olunub, onlardan laboratoriya şəraitində analiz götürülüb. Analiz nümunələri pasiyentlərdə donuz qripi (H1N1) əlamətlərinin olmadığını göstərib. H1N1 virusuna yoluxmaqda şübhəli olanların əksəriyyətində mövsümi qrip virusunun (H3N2) əlamətləri aşkar olunub. Ümumilikdə, 2015-ci ildə donuz qripi virusu üzrə 1400 analiz nümunəsi götürülüb. Bundan başqa, yanvar tətilində Bakı, Gəncə, Sumqayıt və Mingəçevirin 471 məktəbində və 417 uşaq bağçasında dezinfeksiya işləri aparılıb".

Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin direktor müavini "donuz qripi"nin Naxçıvan MR-ə çatmasına dair suala cavab verərək bildirib ki, informasiya həqiqəti əks etdirmir. A.Əliyeva vurğulayıb: "Əlbəttə ki, Naxçıvan MR-də də kəskin respirator virusları tapılır, lakin "donuz qripi"nə yoluxma faktı aşkar edilməyib. Heç kim şayiələrə inanmasın". Onun sözlərinə görə, Zika virusunun Azərbaycana çatma ehtimalı sıfıra bərabərdir.

"Hazırda bu virus əsasən Braziliyada yayılıb. Virusun daşıyıcısı "Aedes aegypti" ağcaqanadıdır. Bu isə Azərbaycanda yoxdur", - deyə A.Əliyeva qeyd edib. Direktor müavini mətbuat konfransı iştirakçılarını "donuz qripi"nin simptomları barədə məlumat verərək deyib: "Bu qrip mövsümi qripdən ağır olur. Xəstələnmə intoksikasiya əlamətləri, o cümlədən qusma, ishal, güclü baş ağrısı, yüksək temperatur, nəfəs almanın çətinliyi, boğulma ilə müşayiət edilir. Ağırlaşma xəstəliyin 2-3-cü günündə baş verir, halbuki adi qripdə bu, 10-15 gündən sonra olur. Ağırlaşma vaxtı daxili orqanlar, xüsusilə ağ ciyər zədələnir. Virus hava-damcı yolu ilə ötürülür. Xəstəliyin əlamətləri göründüyü halda dərhal tibb müəssisəsinə müraciət etmək, maska taxmaq, şəxsi gigiyenaya riayət etmək lazımdır. Vətəndaşlara, həmçinin epidemioloji durumu yaxşı olmayan ölkələrə, mədəni-kütləvi tədbirlərə və adamların kütləvi toplaşdığı yerlərə getməmək tövsiyə olunur".

# Deputat: "Dövlət sahibkarlığın inkişafında maraqlıdır"



***"2008-ci ildən dünyada iqtisadi böhran hökm sürür. Dünyada yaşanan böhran bu illər ərzində ölkəmizdə hiss olunmayıb. Bunun kökündə isə cənab Prezident tərəfindən ölkəmizdə aparılan düzgün iqtisadi siyasət dayanır. Hələ iqtisadi böhranın başlayan vaxtlarında dövlətimizin başçısı demişdi ki, neftdən asılılıq aradan qaldırılmalı, qeyri-neft sektoru inkişaf etdirilməli, sahibkarlığın inkişafına şərait yaradılmalı, iqtisadiyyatda rəqabət qabiliyyətliliyi artırılmalıdır". Bu fikirləri SİA-ya açıqlamasında millət vəkili Azər Badamov deyib.***

O qeyd edib ki, dünyada baş verən böyük proseslər nəticəsində 2015-ci ilin fevralında baş verən manatın devalvasiyasına qədər ölkədə böyük infrastruktur layihələri həyata keçirilib, sahibkarlığın inkişafı ilə bağlı işlər görülüb və yeni qanunvericilik bazası yaradılıb: "Gözləyirdik ki, post-neft dövrü gec başlanacaq. İqtisadiyyatımızın əsas hissəsi neft gəlirləri ilə formalaşırdı. İstəyirdik ki, sahibkarlığın inkişafına sərbəst dəstək verək, həm sosial-iqtisadi inkişaf, həm də iqtisadiyyatın birbaşa inkişaf layihələrini həyata keçirək. Neftin 4 dəfədən çox ucuzlaşması Azərbaycanda qeyri-neft sektorunun, sahibkarlığın inkişafına dəstəyin daha da təkmilləşməsinə zəmin yaratdı. Bir sıra qanunlar qəbul edildi. Son aylar sahibkarlıq mühitində fəaliyyətin daha da təkmilləşdirilməsi və sadələşdirilməsi üçün işlər aparıldı. Əsasən, iki il ərzində sahibkarlıq subyektlərində vergi yoxlamalarının saxlanılması, sahibkarlıq fəaliyyətinə başlanılması üçün xidmət növlərinin lisenziyalarının minimuma endirilməsi, bir sıra sahələrdə lisenziyalaşmanın tamamilə ləğv edilməsi, sahibkarlıq subyektlərinin fəaliyyətə başlaması üçün bir pəncərə sisteminin tətbiq olunması, ASAN xidmətin fəaliyyətinin gündəmə gəlməsi onu göstərir ki, Azərbaycanda bu gün dövlət sahibkarlığın inkişafında maraqlıdır və gələcək inkişafımız da birbaşa bununla bağlıdır".

Deputat bildirib ki, Prezident İlham Əliyev keçirdiyi müşavirələrdə xüsusilə sahibkarlıq mühitinin daha da genişləndirilməli və ölkə iqtisadiyyatının idxaldan tamamilə azad edilməli olduğunu qeyd edib. Millət vəkili vurğulayıb ki, dövlət tərəfindən hər zaman sahibkarlara yardım göstərilir.

# Həmsədrlər Ermənistanın lobbiçilik missiyasında

***ATƏT-in Minsk Qrupunun həmsədrlərinin AŞPA-nın sonuncu iclasında Dağlıq Qarabağla bağlı Azərbaycanın xeyrinə olan və ərazi bütövlüyünü dəstəkləyən qətnamənin qəbuluna qarşı çıxaraq, ikili standartlar amilindən çıxış etdilər. Bu isə bir daha sübut etdi ki, ölkəmizin haqlı mövqeyinin qəbul edilməməsi halları arxasında bir neçə məqamlar dayanır.***

2 Fevral Gənclər Günü münasibətilə gənclərlə görüşü zamanı çıxışında ölkə başçısı İlham Əliyev də Minsk Qrupunun həmsədrlərinin fəaliyyətini kəskin tənqid etdi. Prezident onları münaqişənin həllinə yox, dondurulmasına çalışmaqda günahlandırdı: "Minsk Qrupunun həmsədrlərinin bugünkü fəaliyyəti tamamilə mənasızdır. Onlar nəinki Ermənistana təzyiq etmirlər, hətta Ermənistanı mümkün olan problemlərdən qoruyurlar". Beləliklə, dövlət başçısının da vurğuladığı kimi, Avropada islamofobiyanın pik həddə çatmasına səbəb Azərbaycanın müsəlman ölkəsi olmasıdır. Mövzu ilə bağlı ölkənin tanınmış politoloqları, millət vəkilləri bildirdilər ki, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin göstərdikləri uğursuz fəaliyyət Azərbaycanı qane etmir.

## Milli Məclisin Regional Məsələlər Komitəsinin üzvü Azər Badamov: "ATƏT hələ ki Azərbaycana lazımdır"

- Bəzən ATƏT-in Minsk Qrupunun Azərbaycana lazım olmadığı fikirləri səsləndirilir. Bu da birmənalı şəkildə ATƏT-in Minsk Qrupunun fəaliyyətsizliyi ilə əlaqələndirilir. Minsk Qrupu fəaliyyətsiz olsa belə Dağlıq Qarabağ münaqişəsinin sülh yolla azad edilməsi təşəbbüsü göstərən bir missiyanı həyata keçirdiyi üçün Azərbaycana lazımdır. Nəzərə almaq lazımdır ki, təşəbbüsün olması da özlüyündə bir fəaliyyətdir. Əgər Minsk Qrupunun missiyasından imtina etsək, onda bu missiyanı həyata keçirən başqa bir beynəlxalq qurum müəyyənləşməlidir. Nə qədər ki, torpaqlarımızın işğaldan azad edilməsində müharibə yolunu seçməmişik beynəlxalq qrupların sülhyaratma missiyalarından istifadə etməliyik. ATƏT-in Minsk Qrupunun həmsədrləri mütəmadi olaraq regionlara səfər edir, dövlət rəsmilərinin görüşməsi təşəbbüslərini ortaya qoyur və öz təkliflərini bildirirlər. Bundan sonrakı dönəmdə münaqişənin müsbət həllinə nail olmaq niyyətindədirlərsə, işğalçı Ermənistanla danışıqları gücləndirməlidirlər".



## Politoloq Fərhad Mehdiyev: "Münaqişənin həll olunmasının real yolu Beynəlxalq Ədalət Məhkəməsidir"

- Əslində, ATƏT-in Minsk Qrupunun həmsədrlik institutu Birləşmiş Millətlər Təşkilatının (BMT) Təhlükəsizlik Şurasının xırda bir modelidir. Burada İngiltərə və Çin xaricində Təhlükəsizlik Şurasının daimi 3 nümayəndəsi təmsil olunur. Digər tərəfdən bu variant hal-hazırda Azərbaycan üçün çıxılmaz tək variant olaraq qalır. Nə Azərbaycan, nə də Ermənistan Dağlıq Qarabağ münaqişəsinə BMT Təhlükəsizlik Şurası tərəfindən baxılmasını istəməz. Ermənistan ona görə istəməz ki, Təhlükəsizlik Şurasının qərarları bağlayıcıdır, onlara riayət olunması məcburidir. Azərbaycan da ona görə razı olmaz ki, Rusiya və Fransa Təhlükəsizlik Şurasının veto hüququna malik iki üzvüdür və onlar da bu günkü siyasi konyukturada Azərbaycanın lehinə hər hansı qərarın çıxmasına veto qoyarlar. Bu vəziyyətdə müharibəyə başlamaq istəməyən həm Azərbaycan, həm də Ermənistan üçün ATƏT-in həmsədrlər institutu atəşkəsin qorunmasında ən uyğun platforma rolunu oynamaqdadır. Lakin etiraf olunmalıdır ki, bu formatla münaqişənin həlli gözlənilmir. Münaqişənin həll olunmasının real yolu, məsələni Haaqada yerləşən Beynəlxalq Ədalət Məhkəməsinə (İCJ) verilməkdir. Bunun üçün həm Ermənistan, həm də Azərbaycan məhkəmənin yurisdiksiyasını qəbul etməlidir. Bu günə kimi məhkəmə, bir xeyli ərazi mübahisəsinə son qoymuşdur. Amma burada bir məqam da var ki, İCJ-nin necə qərar verəcəyini dəqiqliklə təxmin etmək mümkün deyil. Hər halda 7 rayonun qaytarılacağına dair qərar verilə bilər, amma Dağlıq Qarabağ hissəsi üçün self-determinationun da üstün tutulması ehtimalı var. Bu haqda əvvəlcədən nəsə demək çətindir. Çünki ortada Kosovo presedenti var, bunu unutmamalıyıq. Bundan başqa variantda isə münaqişənin müharibə olmadan həll edilməsinə nail olmaq mümkün deyil".

## Politoloq Qabil Hüseynli: "ATƏT-in Minsk Qrupundan imtina edəriksə, o zaman beynəlxalq aləmdən də izolyasiya olunacağıq"

- Dağlıq Qarabağ münaqişəsi beynəlmiləşdiyi üçün Azərbaycan ATƏT-in Minsk Qrupundan imtina edə bilməz. Yalnız ATƏT-in tərkibinin formasının dəyişdirilməsi haqqında təklif irəli sürə bilər. Azərbaycanın bu missiyaya öz narazılığını bildirməsinə baxmayaraq, hələ ki, ortada bir əməli iş yoxdur. Ola bilsin ki, gələcəkdə format genişləndirilsin, sədrlər dəyişdirilsin. Bu istiqamətdə Azərbaycan axtarışlar aparır, amma ATƏT variantı gündəlikdə qalacaq. Çünki ATƏT-in Minsk Qrupundan imtina edərikSə, o zaman beynəlxalq aləmdən izolyasiya olunacağıq və Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üçün Ermənistanla üzüzə gəlməli olacağıq. Ermənistanın da danışıqlara getməyəcəyi öncədən bəlli olduğu üçün bir variant qalır, o da müharibə variantı. Hələlik isə müharibə variantı optimal variant hesab edilə bilməz".

***İntizarə Məmmədova***

# “Sonsuz Dəhliz”in növbəti uğuru

## Film “Global Film Awards” mükafatına layiq görülüb

***Müstəqil litvalı rejissor Aleksandras Brokasın rejissoru olduğu “Sonsuz Dəhliz” (“Endless Corridor”) sənədli filmi ABŞ-ın “Accolade Film Competition” adlı nüfuzlu kino nəşrinin “Global Film Awards” müsabiqəsinin “Humanitar mükafatı”na layiq görülüb. Avropa Azərbaycan Cəmiyyətindən verilən məlumata istinadən, bu mükafat “Müstəsna nailiyyət” nominasiyası üzrə verilib.***

“Global Film Awards” dörd unikal film yarışmasını (Accolade Global Film Competition, Best Shorts Competition, IndieFEST Film Awards and IMPACT DOCS Awards) özündə birləşdirir ki, onun məqsədi film, televiziya, video və yeni media sahəsində müstəsna nailiyyətləri qiymətləndirməkdir. Bu beynəlxalq müsabiqəyə dünyanın istənilən ölkəsini təmsil edən tanınmış kinorejissorlarla yanaşı, karyera pilləsinin başlanğıcında olan rejissorların filmləri də təqdim edilir və film sənayesində öz sözünü demiş peşəkar və müstəqil münsiflər heyəti tərəfindən seçilir. Builki qaliblər arasında Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Kanada, Litva, Almaniya, İspaniya, Tayvan, Hollandiya, Hindistan, İrlandiya və Avstraliya istehsalı olan filmlər yer alıb.




“Global Film Awards” tərəfindən təqdim olunan “Humanitar mükafat”ın məqsədi öz filmlərində siyasi, sosial ədalət, ekoloji, sağlamlıq, vəhşi təbiət və mənəvi mövzuların vacibliyinə toxunan kinorejissorların peşəkarlığının qiymətləndirilməsidir. Qaliblər jürilər tərəfindən il ərzində daxil olan yüzlərlə filmin içərisindən diqqətlə seçilir.

“Sonsuz dəhliz” filminin Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərliyi ilə həyata keçirilən “Xocalıya ədalət!” təbliğat-təşviqat kampaniyası çərçivəsində ötən ilin fevral ayında İstanbul, Ankara, Roma, Vilnüs, London, Paris, Dublin, Berlin, Bern, Lüksemburq kimi şəhərlərdə təqdimatı keçirilib. Həmçinin, Türkiyənin “Kanal 24” kanalında və Albaniyanın Milli Televiziyasında nümayiş olunub. Qeyd edək ki, ingilis dilində çəkilən film Leyla Əliyevanın təşəbbüsü ilə Azərbaycan, rus, türk, fransız, italyan, alman və ərəb dillərinə tərcümə olunub.

Film Türkiyənin “Kanal 24”, “NN Türk”, Albaniyanın Milli Televiziyasında və İsrailin “Channel 1” televiziya kanalında nümayiş etdirilib.

Xatırladaq ki, filmin premyerası 2014-cü il iyulun 1-də Londonda Britaniya Film və Televiziya İncəsənəti Akademiyasında (BAFTA) keçirilib. Tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyeva da iştirak edib. “Sonsuz dəhliz” sənədli filmi prodüserlər Aleksandras Brokas (Litva) və nüfuzlu “Grammy Award” mükafatçısı Cerald Rafşun (ABŞ) tərəfindən çəkilib. Ekran əsəri britaniyalı aktyor, BAFTA mükafatçısı Ceremi Ayronz tərəfindən səsləndirilib.

Film Xocalı dəhşətlərinin şahidi olan litvalı jurnalist Riçard Lapaitisin faciədən 20 il sonra yenidən Azərbaycana gələrək qətliamdan xilas olmuş hadisə şahidləri ilə görüşlərində lentə alınmış xatirələri və Ermənistan tərəfindən faciənin təşkilində birbaşa iştirak etmiş şəxslərlə müsahibəsi əsasında qurulub. Ekran əsərində Qarabağın Azərbaycan tarixi və mədəniyyəti üçün əhəmiyyətinə dair süjetlərə yer verilib. Filmdə Xocalı qırğınına dair indiyədək az məlum olan yeni faktlar, sənədlər və vaxtilə çəkilmiş videogörüntülər və fotomateriallara istinad edilir, qətliam haqqında həqiqətlər təsirli şəkildə tamaşaçıya çatdırılır.

***ZÜMRÜD***

## Gürcüstanın “Maestro TV” və “Saperavi TV” kanalları “Azerspace-1” peyki üzərindən yayıma başlayıb

Cənubi Qafqazın yeganə peyk operatoru olan “Azərkosmos” ASC Gürcüstanın “Maestro TV” və “Saperavi TV” kanalları ilə kommersiya yayımınna dair müqavilə imzalayıb. “Azərkosmos” ASC-dən AZƏRTAC-a bildirilib ki, müqaviləyə əsasən, kanallar 2016-cı ildən etibarən “Azerspace-1” peyki üzərindən 11095/H/27500 tezliyi ilə yayımlanmaqdadır. Qeyd edək ki, “Maestro TV” kanalı 1995-ci ildə təsis edilib. Gürcüstan əhalisi arasında populyar olan bu kanal vasitəsilə gürcü dilində əsasən, ictimai, siyasi, iqtisadi, idman, musiqi, mədəniyyət və uşaq verilişləri, sənədli filmlər və seriallar nümayiş olunur. “Saperavi TV”də isə qədim gürcü adət-ənənələrini əks etdirən proqramlar yayımlanır. Peyk operatoru, həmçinin, Türkiyənin “RS FM” radio kanalı ilə müqavilə imzalayıb. Müqaviləyə əsasən, musiqi və informasiya proqramlarının səsləndirildiyi radio kanal Azerspace-1 peyki üzərindən 2016-cı ilin fevral ayından etibarən 11135/H/27500 tezliyi ilə yayımlanacaq.








## Uğurlu siyasət həyata keçirilir

### YAP Daşkəsən rayon təşkilatının idarə heyətinin iclası keçirilmişdir

***Dünən YAP Daşkəsən rayon təşkilatının idarə heyətinin iclası keçirilib. Rayon təşkilatının qərargahında baş tutmuş iclasda idarə heyətinin üzvləri, ərazi ilk partiya təşkilatlarının sədrləri, gənclər birliyinin və qadınlar şurasının üzvləri iştirak etmişlər. Tədbiri giriş sözü ilə açan YAP Daşkəsən rayon təşkilatının sədri Meydanəli Yolçuyev bildirdi ki, yanvarın 16-da Yeni Azərbaycan Partiyasının rayon və şəhər təşkilatları sədrlərinin ümumrespublika müşavirəsində 2015-ci ilin yekunları və qarşıda duran vəzifələr müzakirə olunub: “Həmin müşavirədə Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov 2016-cı ilin ölkəmiz, xalqımız və partiyamız üçün uğurlu olmasını arzulamış, bu ildə də partiyamızın yerli strukturları səmərəli fəaliyyət göstərərək ümumi inkişafa öz töhfələrini verəcəklərini bildirmişdir. Hörmətli Əli müəllim bildirmişdir ki, ötən il ərzində Azərbaycanın müasirləşməsi, modernləşməsi, beynəlxalq müstəvidə mövqelərinin möhkəmlənməsi istiqamətində uğurlu siyasət həyata keçirilib. Onun sözlərinə görə, ötən il ilk Avropa Oyunlarının Azərbaycanda keçirilməsi də ölkəmizin böyük uğurlarından biridir. 2015-ci ilin mühüm hadisələrindən biri də parlament seçkiləri olmuşdur”.***

Təşkilat sədri parlament seçkilərində xalqımızın bir daha Prezident İlham Əliyevin siyasətinə səs verdiyini söylədi: “Yeni Azərbaycan Partiyası mütəşəkkil qaydada seçki kampaniyası həyata keçirdi və qələbə qazandı. Seçki kampaniyasının uğurlu olmasında təbii ki, partiyanın rayon və şəhər təşkilatlarının fəaliyyətinin də böyük rolu var. YAP-ın Sədr müavini Əli Əhmədov eyni zamanda qarşıda duran vəzifələrlə əlaqədar partiyanın rayon və şəhər təşkilatlarının rəhbərlərinə də tövsiyə və tapşırıqlarını vermişdir.

YAP Daşkəsən rayon təşkilatının sədri Meydanəli Yolçuyev rayon təşkilatının bu il qarşısında duran vəzifələrin həyata keçirilməsi, YAP sıralarına qəbul, ilk partiya təşkilatlarının fəaliyyəti, partiyanın rayonda keçirəcəyi tədbirlər və digər məsələlər barədə danışmışdır. Həmçinin, rayon ərazisində həyata keçirilən uğurlu layihələrdən, təntənəli açılışlardan, bütün tikinti-təmir və yenidənqurma işlərində və eləcə də keçirilən bütün tədbirlərdə, həmçinin, rayonun ictimai - siyasi həyatında YAP Daşkəsən rayon təşkilatı yaxından iştirak edərək öz töhfəsini verdiyini qeyd etmişdir”.

Meydanəli Yolçuyev yığıncaq iştirakçılarının diqqətinə çatdırmışdır ki, yola saldığımız 2015-ci ilin may ayının 16-da ilk Avropa Oyunlarının məşəli Daşkəsən rayonuna gətirildiyini bildirdi: “Rayon əhalisinin böyük coşqu ilə qatıldığı ilk Avropa Oyunlarının məşəlinin qarşılanma və estafet mərasimləri “Bakı-2015” Avropa Oyunları Təşkilat Komitəsi tərəfindən yüksək qiymətləndirilmiş Daşkəsən rayonu ilk Avropa Oyunlarının “Xatirə” medalı ilə təltif edilmişdir. Bütün bu nailiyyətlərin əldə edilməsində rayon təşkilatının fəaliyyəti danılmazdır. Daşkəsən rayon icra hakimiyyətinin rayonun inkişafı ilə əlaqədar bütün sahələrdə dövlət qarşısında qaldırdığı məsələlərdə YAP Daşkəsən rayon təşkilatı da mütərəqqi fikirlərlə daima çıxış etmişdir”.

YAP Daşkəsən rayon təşkilatının sədri Meydanəli Yolçuyev çıxışın sonunda vurğulamışdır ki, YAP Daşkəsən rayon təşkilatı gələcək fəaliyyətində də qarşısında duran bütün vəzifələri layiqincə yerinə yetirəcək, Yeni Azərbaycan Partiyasının Proqram və Nizamnaməsinin tələblərinə uyğun olaraq partiyanın tapşırıqlarının yüksək səviyyədə həyata keçirilməsinə çalışacaqdır.

***Rəfiqə KAMALQIZI***

TƏRS BAXIŞ

# Müsavat partiyası digər AXCP ilə də savaşa girişdi...

*Qarşı tərəfin sərt cavabını aldı*





***Müsavat partiyasının uzun illərdən bəri AXCP ilə düşmən münasibətdə olması çoxlarına məlumdur. Yəni bu barədə çoxsaylı faktlar və dəlillər mövcuddur. Lakin bu günlərdə növbəti fakt yeni bir qarşıdurma məsələsini ortaya çıxarıb. Daha dəqiq desək, Müsavat partiyası Əli Kərimlinin sədri olduğu AXCP-dən savayı, digər cəbhəyə qarşı-Razi Nurullayevin yaratdığı alternativ AXCP-yə də savaş elan edib. Bu isə, ilk növbədə belə qənaətə gəlməyə zəmin yaradır ki, ümumiyyətlə, müsavatçılar üçün AXCP amili hansı tərəfdən olursa-olsun, qəbuledilməzdir. Beləlkilə, keçək sözügedən məsələnin mətləbinə.***

## İkitərəfli münqaişə artaraq üçtərəfli qarşıdurmaya çevrilib

Bu günlərdə Müsavat partiyası ilə həmin partiyadan qurultaydan sonra yollarını ayırmış sabiq müsavatçılar arasında söz atışması baş qaldırıb. Sosial şəbəkədə, eləcə də mətbuatda bir-birilərini ən ağır şəkildə ittiham edən tərəflər xəyanət, satqınçılıq, hakimiyyətə işləmək kimi suçları bir-birilərinin üzərilərinə dolu kimi yağdırırlar. Bu məsələdə Qubad İbadoğlunun ADR-də təmsil olunan aparıcı hərəkat üzvləri Arif Hacılının tərəfdarları ilə söz atışmasına çıxıblar. Lakin həmin əsnada müsavatçılar gözlənilmədən Razi Nurullayevin sədri olduğu AXCP-nin də bostanına daş atıblar ki, nəticədə ikitərəfli münqaişə artaraq üçtərəfli qarşıdurmaya çevrilib. Daha dəqiq desək, Nurullayev cəbhəsini İbadoğlunun hərəkatı kimi iqtidarla iş birliyində olduğunu önə sürən müsavatçılar indi hər iki tərəfdən sərt cavablar almaqdadırlar.

Məsələn, alternativ AXCP-nin sədr müavini Səbuhi Aslanbəyli Müsavatın ittihamlarını ən kəsin xarakterdə tənqid edib və bildirib ki, əslində ənənəvi müxalifətin, xüsusilə də Müsavatın gözləri döyənək edən "liderləri" ADR, alternativ AXCP kimi partiyaların siyasi meydana çıxaraq yenilik gətirmələrindən, qaragüruhçuluqdan və radikallıqdan kənar şəkildə fəaliyyət göstərməsindən, eləcə də özlərinin siyasi arenadan silinmələrindən ehtiyat edərək, bu kimi ziddiyyətli mövqe tutmağa başlayıblar. "Bu təfəkkürə malik insanların da öz yandaşları kimi eyni mövqeyə sahib təşkilatlarla əməkdaşlıq etməyə can atması aydındır"-deyə qeyd edən Razi Nurullayevin müavini bildirib ki, onları ittiham atəşinə tutanlar xarakterlərinə uyğun şər və böhtan dolu atmacalarla, heç bir əsası olmayan yanaşmalarla çox da uzağa gedə bilməyəcəklər. O, Müsavat başqanının müavini Elman Fəttahın onları iqtidar üçün vint rolu oynamaq ittihamına da tutarlı cavab verib: "Kimlərin vint rolunu oynadığı da cəmiyyətə çoxdan məlumdur. 1998-ci ildə Elçibəyə edilmiş xəyanətin başında Müsavatın indiki rəhbərliyi dayanırdı. Bugünkü durumda Müsavatın parçalanmasına xidmət edən birilərinin kimlərəsə söz atmaları səviyyə fərqində də nə qədər küt zəkalı olamağın əlamətidir".

## Həmin müxalifəti sivil yolla müxalifətçilik edən tərəflər dalana dirəməyə başlayıblar

AXCP rəsmisi növbəti maraqlı amilə də toxunub. Belə ki, qondarma qurultay vasitəsilə və saxtakarlıq yolu ilə başqanlığa seçilən, daha sonra AXCP sədri Əli Kərimlinin ayağına gedərək, yenidən ona əməkdaşlıq təklifi irəli sürən Arif Hacılıya xatırlatma edən cəbhəçi rəsmi deyib ki, Arif Hacılı Əli Kərimlidən rədd cavabı aldıqdan sonra yenidən özünü gözə soxmaq istəyir. Sitat: "Müsavat rəhbərliyi bizə şər-böhtan ataraq Əli Kərimliyə özlərini şirin göstərməyə çalışmaqla qaragüruh bataqlığında siyasət yürütmək ənənələrindən vaz keçmədiklərini bir daha göstərirlər".

Belə bir vəziyyətdə ənənəvi müxalifətin qazanının qaynayaraq aşıb-daşdığını deyə bilərik. Bu dəfə isə həmin müxalifəti sivil yolla müxalifətçilik edən tərəflər dalana dirəməyə başlayıblar. Ancaq bütün hallarda bu, belə deməyə zəmin yaradır ki, artıq Əli Kərimli və Arif Hacılı kimi "liderlərin", həqiqətən də getmək zamanı çatıb. Onlar özləri qazdıqları quyuya düşərək, demək olar ki, siyasi xəstəxanalıq olmaqla yanaşı, klinik deyil, real ölümlə qarşılaşıblar.

**Rövşən RƏSULOV**

# Ceyms Uorlik dəyişməz ampluadadır

*Arzu Nağıyev: "Dağlıq Qarabağ Azərbaycan ərazisi kimi bütün beynəlxalq təşkilatlar tərəfindən tanınırsa, erməni icmasının statusu nə ola bilər?"*



**Müsahibimiz politoloq Arzu Nağıyevdir**

***- Arzu müəllim, ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri bəyan edib ki, Ermənistanla Azərbaycan gələcək üçün əməkdaşlıq yollarını axtarmalıdırlar. Dağlıq Qarabağ münaqişəsi tam həllini tapmadan düşmən ölkə ilə nə dərəcədə əməkdaşlıq qurula bilər ki?***

- ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlik belə bir bəyanatla əvvəllər də çıxış edib və onun əsas fikri xalq diplomatiyası kimi icmaların görüşünü təklif etməkdir. Burada da bir sıra məqamlar var. Yəni Dağlıq Qarabağ Azərbaycan ərazisi kimi bütün beynəlxalq təşkilatlar tərəfindən tanınırsa, erməni icmasının statusu nə ola bilər? Digər tərəfdən Serj Sarkisyan və onun komandası buna heç vaxt razılıq verə bilməz. Çünki bu, artıq onun və cinayətkar komandanın sonu deməkdir. Düşünürəm ki, bu bəyanatlar münaqişənin həlli istiqamətində heç bir müsbət rol oynamayacaq.

***- Deməк olarmı ki, həmsədrlər yalnız mənasız bəyanatlar verməklə işlərini yekunlaşdırmış hesab edirlər?***

- Bəli, demək olar. ATƏT-in Minsk Qrupunun verdiyi deklorativ bəyanatlar, nəhayət, öz məntiqi sonluqlarına çatdı. Göründüyü kimi, nüfuz davasından başlamış, öz dövlətlərinin münaqişəyə münasibətinə qədər bariz bir misal nümayiş etdirdilər. Eyni zamanda, AŞPA-nın da qərarlarının dəyişdirilməsinə nail oldular. Təbii ki, digər dövlətlərin də rolu az olmadı, lakin əsas məqam Minsk Qrupunun bəyanatı ilə tamamlandı.

***- Məlumatlara görə, həmsədrlər regiona səfərə hazırlaşırlar. Bu səfərdən gözləntilər nədən ibarə ola bilər?***

- Düşünürəm ki, boş "turist" səfərlərimdənsə, real bir iş görmək daha yaxşı olardı. Bu gün səfərlər etməklə, monitorinqlər keçirməklə Madrid prinsiplərində göstərilən müddəalar həll edilmir. Ona görə də ATƏT-in geniştərkibli bir toplantısı keçirilməli və məhz bu suallara aydınlıq gətirilməlidir. Çünki istər Avropa, istərsə də ümumiyyətlə, Qərb münaqişənin bu qədər uzanmasında və status-kvonun saxlanmasında maraqlı olmamalıdırlar. İlk öncə təhlükəsizlik baxımından bu, həll edilməlidir, çünki iqtisadi cəhətdən belə bir çətin vaxtda mühüm layihələrin həyata keçirilməsi üçün ən önəmli məsələdir. Eyni zamanda, ATƏT kimi bir qurumun nüfuz məsələsi ortadadır, bu məsələnin həllinə ciddi yanaşmamaq bu nüfuza ağır bir zərbə vurur. Səfər məsələsinə gəldikdə isə bu hesabat səfəri olsa idi, daha vacib olardı.

**GÜLYANƏ**

# Daxili intriqalar müxalifətə növbəti bəlalar vəd edir

***Bütün hallarda müxalifətin dağınıq və pərakəndə halda olmasının başlıca günahkarı AXCP və Müsavat partiyalarıdır. Yəni bu iki pariya arasında gedən çəkişmələr müxalifətin birləşmək arzusunu alt-üst edib. "Yurddaş" partiyasının sədri Mais Səfərli "SƏS"-ə açıqlamasında bildirdi ki, AXCP və Müsavat partiyaları müxalifətin inkişafına əngəl olan partiyalardır: "Bu gün Azərbaycan müxalifətinin normal şəkildə formalaşmamasının əsas səbəblərindən biri AXCP və Müsavat arasında olan intiriqadır.***



Bu iki partiya arasında gedən qarşıdurmalar müxalifət düşərgəsinin normal inkişaf etməsinə və islahatların aparılmasına mane olan amillərdəndir. Yəni AXCP və Müsavat arasında olan dava-dalaş müxalifəti tamamilə iflıc bir vəziyyətə salıb. Təbii ki, müxalifət daxilində olan partiyaların biri digərini qəbul etməməsinin tarixi səbəbləri də var. Bu baxımdan demək olar ki, AXCP ilə Müsavat arasındakı münaqişənin əsası o zamandan başlayıb. İndiyə qədər də adları çəkilən partiyalar arasında mübarizə davam etməkdədir".

Partiya sədri vurğuladı ki, müxalifət partiya rəhbərləri hesab edirlər ki, biri digərini siyasi səhnədən sıxışdırıb çıxarmaqla maraqlarını təmin etməyə ümid bəsləməyə çalışırlar: "Yəni siyasi səhnədə müxalifət düşərgəsi öz monopoliyasını götürmək istəyir. Məhz müxalifət partiya rəhbərlərinin arasında gedən dava-dalaş bunun üzərində qurulub".

M.Səfərli onu da bildirdi ki, bu gün müxalifətin var olması cəmiyyət üçün maraqlı deyil: "Əgər adını siyasi qüvvə qoyanlar normal təşəbbüslər, proqramlar irəli sürə və cəmiyyəti cəlb edə biləcək normal ideyalarla çıxış edə bilmirsə, onda da həmin partiyaların cəmiyyət tərəfindən heç bir siyasi dəstəyi də olmayacaq. Bugünkü müxalifətin bu cür çıxılmaz bir vəziyyətə düşməsinin də səbəbi məhz müxalifətin yersiz hərəkətləri, yalan vədləri və şəxsi ambisiyalarının olması ilə bağlıdır. Demək olar ki, bu gün müxalifət partiyalarının var olub-olmamasının cəmiyyət üçün heç bir isti-soyuqluğu yoxdur".

Partiya sədri onu da qeyd etdi ki, müxalifətin bundan başqa sonu ola bilərmi? Artıq bu, müxalifətin sonu deməkdir: "Bu baxımdan, yaxış olardı ki, müxalifət partiya rəhbərləri papaqlarını qarşılarına qoyub düşünsünlər ki, müxalifəti bu cür çıxılmaz vəziyyətdən necə çıxaraq. Yəni onlar bir-birini qırmaq yox, müxalifətin yenilənməsinə çalışmalıdırlar. Əks-təqdirdə müxalifət partiyaları tamamilə mövcudluqlarını itirəcəklər".

**G.AĞAKƏRİMOVA**

# Fermerlərə problemi kim yaradır?

*Dövlət baytarlıq idarələrinin iribuynuzlu heyvanların süni mayalanma yolu ilə artırılmasına maraq göstərməməsi bu qurumların işlək mexanizmə çevrilə bilməməsindən xəbər verir*

***Ölkəmizdə bütün sahələrdə iqtisadi inkişafa və tərəqqiyə nail olunub. Böyük dəyişikliklər kənd təsərrüfatında da həyata keçirilib, kənd təsərrüfatı məhsullarının artırılması üçün bütün lazımi tədbirlər görülüb. Üzümçülük, pambıqçılıq, taxılçılıq sahələrinin inkişaf etdirilməsi üçün dövlət müvafiq proqramlar qəbul edib. Hətta bu yaxınlarda Azərbaycan Respublikasının Milli Məclisi üzümçülük, şərabçılıq haqqında qanun qəbul edib. Əhalinin ərzaqla təminatında mühüm rol oynayan taxılçılığın inkişaf etdirilməsi fermerlərin qarşısında dayanan məsələlərdən sayılır.***




Hazırkı məqamda Azərbaycan taxıla olan daxili ehtiyaclarını 90 faiz təmin edir və bu göstəricinin 100 faizə çatdırılması üçün Prezident İlham Əliyev aidiyyəti dövlət qurumlarına müəyyən tapşırıqlar verib. Təbii ki, kənd təsərrüfatının inkişafından söhbət düşəndə heyvandarlıq sahəsində nailiyyətlərin əldə olunması başlıca məqsədlərdən sayılır. Hazırkı məqamda Azərbaycan iqliminə uyğun xırda və iribuynuzlu heyvanların yetişdirilməsi hədəflərdən biridir. Əslində xaricdən heyvanların alıb-gətirilməsi kənd təsərrüfatının, heyvandarlığın inkişafına yalnız xeyir verə bilər. Təkcə bir faktı qeyd etmək lazımdır ki, Hollandiya və Almaniyada yetişdirilmiş inəklər il ərzində 10-11 min litr süd verir. Azərbaycanda isə bəslənən inəklər yalnız 1200-1300 litr süd verə bilir. Bu baxımdan xaricdən xırda və iribuynuzlu heyvanların alıb-gətirilməsi yaxşı olardı. Məhz bunu nəzərə alaraq, dövlətimiz xaricdən cins mal-qara alınıb gətirilməsinə xüsusi önəm verir. Əldə olunan məlumata görə, son illər xaricdən ölkəyə 2879 cins mal-qara gətirilib. Bu məqsədlə Kənd Təsərrüfatı Nazirliyinə 10 milyon manat vəsait ayrılıb.



## Süni mayalandırmanın heyvandarlığın inkişafında önəmi

Fermerlərin iddialarına görə, süni mayalanma yolu ilə əldə edilmiş iribuynuzlu cins heyvanlardan gündə 17-20 litir süd alınması mümkündür. Belə heyvanların ətvermə qabiliyyəti də yüksək olur. Sahibkarlar o fikiri də vurğulayırlar ki, Hollandiyaya məxsus "Holşteynfriz"" cinslərinin süni mayalanma yolu ilə artırılması heyvandarlığın inkişafında müsbət nəticələr verir. Həm də, belə mayalanma yolu ilə artırılan heyvanlar bölgənin iqliminə daha tez uyğunlaşa bilirlər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci il 15 avqust tarixli Sərəncamı ilə süni mayalanmadan alınan hər buzova görə 100 manat yardım müəyyən edilib. Bu Sərəncamdan irəli gələn vəzifələri yerinə yetirmək üçün Nazirlər Kabineti "Süni mayalanma yolu ilə alınmış hər buzova görə subsidiyaların verilməsi qaydasını" təsdiq edib. Sual yarana bilər: Sərəncamdan irəli gələn tələblər, eləcə də, Nazirlər Kabinetinin məsələ ilə bağlı təsdiq etdiyi qaydalara yerlərdə əməl edilirmi? Kənd Təsərrüfatı Nazirliyinin müvafiq strukturları sahibkarlar arasında heyvandarlığın süni mayalanma yolu ilə artırılması istiqamətində maarifləndirmə tədbirləri həyata keçirirmi? Maya dəyəri 20-30 qəpik olduğu halda heyvanların birkalanmasına görə 6-7 manat alınması nə dərəcədə düzgündür? Redaksiyamıza daxil olan şikayət məktublarına və apardığımız araşdırmalara əsasən, demək olar ki, Kənd Təsərrüfatı Nazirliyinin yerlərdəki şöbələri bu istiqamətdə üzərinə düşən vəzifəni heç də tam şəkildə yerinə yetirə bilmir. Saatlı rayonundan olan fermer Nuhəli Kərimov və Qobustan rayonunun Cəngi kəndindən olan Nazim Əliyev ölkəyə iribuynuzlu mal-qaranın gətirilməsində şəffaflığa əməl olunmadığını qeyd ediblər. Bildiriblər ki, əslində Kənd Təsərrüfatı Nazirliyi tender keçirməli və damazlıq mal-qaranın gətirilməsini təmin etməlidir. Ancaq nazirlik hansı səbəbdənsə fermerlə fərdi qaydada müqavilə bağlayır, xaricdən iribuynuzlu heyvanların gətirilməsinə nail olur: "Bu hal fermerlər arasında ayrıseçkiliyə yol verir. Dövlətin ayırdığı milyonların havaya sovrulmasına gətirib çıxarır".

Qobustan rayonunun Cəngi kəndindən olan N.Əliyev bildirir ki, özünün vəsaiti hesabına rayon baytarlıq idarəsi tərəfindən 3 baş inəkdə süni mayalanma həyata keçiriblər. İnəklər buzov doğsa da dövlətin ayırdığı 100 manat vəsaiti ala bilməyib.

Eyni ittihamla Saatlı rayonunun Azadkənd kəndindən olan fermer Ağaverdi Şəmmədov da bildirir ki, ölkə üzrə gedən aqrar islahatlar Saatlı rayonundan sanki yan keçib: "Kənd Təsərrüfatı Nazirliyinin Saatlı rayon Baytarlıq İdarəsi kəndin mal-qarasını qeydiyyata alsa da, süni mayalanma üsulu ilə doğulan buzovlara görə dövlət tərəfindən ödənilməli olan 100 manat pulu ala bilməyib. Ümumiyyətlə, heyvanların süni mayalanma yolu ilə artırılması ilə bağlı Kənd Təsərrüfatı Nazirliyinin fermerlər arasında maarifləndirmə işi demək olar ki, sıfır həddindədir".

Rayon Baytarlıq İdarəsinin rəisi Bəhmən Namazov Saatlı fermerlərinin üzləşdikləri problemlərə aydınlıq gətirərkən bildirib ki, rayon üzrə 67 minə yaxın iribuynuzlu heyvan qeydə alınıb: "Hələ ki, heyvanların birkalanması halı olmayıb. Qaydaya görə heyvanlara birka vurulduqdan sonra elektron hesabata daxil edilir. Bundan sonra Kənd Təsərrüfatında yaradılan komissiyada baxış həyata keçirilir. Məhz bundan sonra doğulan hər bir buzova görə fermerlərə pul ayrılır. Hələ ki, hansısa fermerə pul ayrılmayıb".

Quba rayonunun Vladimirovka kəndindən olan fermer Mahir Sayibov da Kənd Təsərrüfatı Nazirliyinin yerli şöbəsinin əməkdaşlarının bürokratik əngəllər yaratdıqlarından şikayətlənib: "Heyvanlar süni mayalanmadan sonra birkalanıb qeydiyyata alınmalıdır. Bununla onlar süni mayalanma tətbiq olunan maq-qaranın sayını müəyyənləşdirərək Prezidentin Sərəncamına uyğun olaraq fermerə pul ayırmalıdırlar. Amma onlar heyvanların birkalanması üçün məndən hər bir inəyə görə 5 manat pul istəyirlər. Halbuki baytarlıq mağazalarında həmin birkanın qiyməti cəmi 20-30 qəpikdir".

Şikayətçi iddia edir ki, süni mayalanma üzrə texniklərin dediyinə görə, 5 manat alınması qaydasını Kənd Təsərrüfatı Nazirliyində şöbə müdiri işləyən Qudrət adlı şəxs müəyyənləşdirib: "Nazirliyin Şimal zonası üzrə kuratorunun dediyinə görə, Qüdrətin imzaladığı "nakladnoy" ilə birkaların hər birinin qiyməti 3 manat müəyyənləşdirilib. Rayon texnikləri də üstünə iki manat qoyur, olur 5 manat. Necə ola bilər ki, süni mayalanmaya görə əlavə 5 manat birka haqqı və digər xərclər ödənilsin? Verməsən 100 manat bizim kimi fermerlərin əlindən çıxa bilər. Bu baxımdan heyvanların birkalanmasından imtina edirik. Ümid edirik ki, müvafiq dövlət qurumları bu cür özbaşınalığın qarşısının alınması üçün tədbirlər görəcək".




## Eldar İbrahimov: "Qərarlara əməl edilmirsə, həmin qurumlar məsuliyyət daşıyırlar"

Məsələ ilə bağlı münasibətini öyrəndiyimiz Milli Məclisin Aqrar-Siyasət Daimi Komitəsinin sədri Eldar İbrahimov bildirib ki, kənd təsərrüfatının inkişaf etdirilməsi üçün dövlət tərəfindən hər cür imkan və şərait yaradılıb, dövlət proqramları qəbul edilib: "Prezident İlham Əliyevin süni mayalanmadan alınan hər buzova görə 100 manat yardım olunması barədə Sərəncamı kəndliyə, fermer təsərrüfat sahiblərinə göstərilən qayğının və diqqətin nəticəsidir, ərzaq bolluğunun yaradılmasına göstərilən dəstəkdir. Prezidentin imzaladığı sərəncamları və qərarları icra etmək hər bir dövlət qrumu üçün qanundur. Əgər bu qərarlara əməl edilmirsə, həmin qurumlar məsuliyyət daşıyırlar".

## Güzəştlərdən fermerlər məhrumdur

Məlumat üçün qeyd etmək lazımdır ki, xaricdən gətirilən damazlıq heyvanlar fermerlərə lizinq yolu ilə verilməlidir. Yəni heyvanın dəyərinin 50 faizini dövlət ödəyir. Qalan 50 faiz pulun yarısını isə fermerlər öz vəsaitləri hesabına ödəməlidir. Qalan hissə isə 3 il müddətinə lizinq yolu ilə ödənilməlidir. İstər lizinqin həyata keçirilməsində, istərsə də, süni mayalanmaya görə vəsaitin ödənilməsi prosesi Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidmətinin rayon baytarlıq idarəsinin rəisləri və Maliyyə Nazirliyinin rayon üzrə Maliyyə İdarəsinin səlahiyyətli nümayəndələri həyata keçirməlidirlər. Qanuna görə, 5 gün müddətində heyvan sahibinin iştirakı ilə təqdim olunmuş məlumatların düzgünlüyü yoxlanaraq təsdiqlənməlidir. Məhz bundan sonra lizinq yolu ilə heyvanın verilməsi və süni mayalanma ilə doğulan buzovlara görə 100 manat pulun ödənilməsi barədə qərar verilir. Araşdırmalarımıza əsasən, demək olar ki, Quba, Xaçmaz, Lənkəran, Saatlı, Qobustan, Şamaxı, Qax və Zaqatala rayonlarında fermer təsərrüfatı rəhbərlərinin arzu etdikləri proseslər həyata keçirilməyib. Bu baxımdan Kənd Təsərrüfatı Nazirliyinin hansı işlərlə muşğul olduğu müəyyən qədər şübhələr doğurur və suallar yaradır. Elə bu suallardan bəzisinə cavab tapmaq üçün Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarət Xidmətinin heyvandarlıq məhsullarına və yüklərə nəzarət sektorunun müdiri Aydın Hüseynov fermerlərin ittihamlarının əsassız olduğunu qeyd etdiyi fikirləri ilə sübut etməyə çalışdı. Sektor müdiri bizimlə söhbətində bildirdi ki, Respublika Mayalanma Mərkəzinin əməkdaşları rayon icra hakimiyyətlərinin nümayəndələrinin iştirakı ilə fermerlərlə görüşlər keçirərək, heyvandarlığın inkişafı üçün süni mayalanmanın əhəmiyyəti barədə söhbətlər aparılır: "Heyvanların birkalanması isə, nəsə təzə söhbətdir. Yanlış və dəqiq olmayan məlumatdır. Heç kim heyvanlara birka vurulmasına görə fermerlərdən pul ala bilməz".

Bir sözlə, kənd təsərrüfatının inkişafı üçün dövlət tərəfindən yaradılan şəraitdən, geniş imkanlardan fermerlərin istifadə etmələrinə Kənd Təsərrüfatı Nazirliyinin yerli strukturları süni əngəllər yaradırlar. Bu isə, şikayətçinin yuxarıda dediyi kimi, yalnız özbaşınalıq, qanun və qərarlara hörmətsizlik deməkdir.

***İ.ƏLİYEV***

# Niyə təxribatların önündə məhz Əli Kərimli və İsa Qəmbər gedir?

*Sərdar Cəlaloğlu: "Əli Kərimli də, İsa Qəmbər də hakimiyyətdə olublar, özlərinə müəyyən biznes qurublar"*

***Son illər iqtisadiyyatımızın strukturu müsbətə doğru dəyişmiş, çoxşaxəli iqtisadiyyata çevrilmiş, qeyri-neft sektorunun dinamik inkişafı təmin edilmişdir. Hər il sahibkarlara həm siyasi, həm də iqtisadi dəstək və Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə yüz milyonlarla ölçülən kreditlər verilir. Vətəndaş cəmiyyəti quruculuğunda və demokratik proseslərin sürətləndirilməsində genişmiqyaslı işlər görülür, tədbirlər həyata keçirilir.***

Təbii ki, xaos və iğtişaşlar olan yerdə demokratiya ola bilməz. Bu sadə məntiq dağıdıcı müxalifətə hələ də çatmır. Onlar daim əks prinsiplərlə fəaliyyət göstəriblər. Xarici anti-Azərbaycan dairələrin çirkli pulları hesabına ölkədə qarşıdurma yaratmaq istəyən AXCP-Müsavat funksionerləri öz ağalarının tapşırıqlarını yerinə yetirmək üçün dəridən-qabıqdan çıxırlar, Azərbaycanı ötən əsrin 90-cı illərinin anarxiya və xaos dövrünə sürükləmək istəyirlər. AXCP sədri Əli Kərimli, Müsavat başqanl Arif Hacılı, Müsavat partiyasının keçmiş başqanı İsa Qəmbər və ətraflarına topladıqları digər ünsürlər sanki öz xalqına, millətinə qənim kəsiliblər. Onların hərəkətləri müxalifətçilikdən çox-çox uzaqdır.

Bunlar xalqa düşmən kəsiliblər. Belələri müxalifət adına ləkədir.

## Müxalifət xarici qüvvələrin əlində alətə çevrilib



Hadisələrin inkişafı onu deməyə əsas verir ki, müxalifətin ölkədə təxribatlara cəhdinin arxasında xarici maraqlı qüvvələr dayanır. Hansı ki, bu qüvvələr Müsavat, AXCP kimi partiyalara müəyyən yardımlar edir, mənəvi dəstək göstərirlər. Bir neçə müxalifətdən olan təxribat qrupunun üzvlərinin manatın cüzi olaraq zəifləməsini bəhanə gətirərək, pozuculuğa cəhd etmələri deyilənlərə sübut ola bilər. Təsdiq olunan məlumata görə, müxalifətə ictimai-siyasi sabitliyi pozmaq üçün xaricdəki bəzi maraqlı dairələr böyük məbləğdə maliyyə yardımı ayırmışdırlar. Bu işdə koordinator polunda çıxış edən Əli Kərimli, Arif Hacılı və İsa Qəmbər tez-tez təxribatçı qruplarla görüşlər keçirib söhbətlər aparmışlar. Hətta məlumatlara görə, Ə.Kərimli aksiyalar vasitəsi ilə hüquq-mühafizə orqanları ilə qarşıdurmalara getmək üçün planlar da işləyib hazılamışdır. Amma ictimaiyyətin təpkisi və hüquq-mühafizə orqanlarının qətiyyəti Ə.Kərimli və onun havadarlarının planlarını alt-üst etdi.

Bəzən sual yaranır: niyə təxribatların önündə məhz Ə.Kərimli, İ.Qəmbər və A.Hacılı gedir? Digər partiyaya yetkililəri müxalifət deyilmi?

ADP sədri Sərdar Cəlaloğlu bunun səbəbini sözügedən şəxslərin zamanında hakimiyyətdə olub, xaricdə özlərinə havadalar tapmaları ilə əlaqələndirib: "Əli Kərimli də, İsa Qəmbər də hakimiyyətdə olublar, özlərinə müəyyən biznes qurublar. Oradan da pulları gəlir, pis-yaxşı partiyalarını saxlayırlar. Ona görə də ətraflarına müəyyən qədər adam toplaya biliblər. Beynəlxalq təşkilatlar da bunlarla əməkdaşlıq etməkdə maraqlıdır, çünki keçmiş iqtidar olublar və hazırkı hakimiyyətə qarşıdırlar. Amma bunu aşıq demək lazımdır ki, bu iki partiyanın tutduğu mövqe Azərbaycan müxalifətini məhv edib. Nə qədər ki, bu iki partiya var, ölkədə müxalifətin gücü, potensialı ilə nəsə etmək mümkün olmayacaq. Bunlar, ümumiyyətlə, bir araya gəlmək istəmirlər. Nə vaxt müxalif qüvvələr bir araya gəliblər, birlik yaradıblar, bunlar həmin birlikləri dağıdıblar. Bu iki partiya həmişə bir-birilərinə düşmən olublar".

Maraqlıdır ki, pozuculuq aktlarını törədilməsində eyni mövqedən çıxış edən AXCP və Müsavat funksionerləri müxalifətdə maraqların bölüşdürülməsində bir-birinə güzəştə getmirlər. Hətta iqtidar-müxalifət dialoqları çərçivəsində keçirilən müzakirələrə tərəflər qatılmağa tərəddüd edirlər. Səbəb də biri digərinin xəyanətkar damğası ilə ittiham olunmasıdır.

BAXCP sədri Qüdrət Həsənquliyevin sözlərinə görə, Müsavat partiyasının görüşə qatılmaması sadəcə olaraq Arif Hacılının Əli Kərimlidən çəkinməsi ilə bağlıdır: "Arif Hacılı qorxur ki, Əli Kərimli ona yenidən hücumlar təşkil edəcək və ona müxalifət sertifikatı verməyəcək. Yeni Əli Kərimlinin şantajından qorxduğu üçün Müsavat partiyası bu görüşə qatılmadı".

**İ.ƏLİYEV**

# Müxalifət sivil mübarizədən uzaqdır

*Tahir Kərimli: "Fəaliyyətsiz siyasi partiyaların dövlət qeydiyyatının ləğv olunması düzgün təklifdir"*



**Müsahibimiz Vəhdət Partiyasının sədri, millət vəkili Tahir Kərimlidir**

***-Tahir bəy, Milli Məclisdə səslənən fikirlərə görə, fəaliyyətsiz siyasi partiyaların dövlət qeydiyyatı ləğv olunmalıdır. Sizcə, təklifin reallaşması partiyaların fəaliyyətində dəyişiklik yarada bilərmi?***

- Fəaliyyətsiz siyasi partiyaların dövlət qeydiyyatının ləğv olunması düzgün təklifdir. Nəyə görə? Çünki birincisi ədalətli təklifdir, ikincisi beynəlxalq praktikaya uyğundur. Bu gün elə partiyalar var ki, 20 ildən artıqdır ki, fəaliyyət göstərir nə adının tapa bilirsən, nə də ki, sədri rəhmətə getdiyi üçün həmin partiyanın fəaliyyəti belə yoxdur. Bu cür partiyaların mövcud olması partiyaların sayını artırır, amma digər partiyaların adına da xələl gətirir. Avropada iki ildən artıq seçkilərdə iştirak etməyən və fəaliyyət göstərməyənlər haqqında araşdırma aparılır və bununla da bu partiyaların dövlət qeydiyyatı məhkəmə qaydası ilə ləğv olunur.

***- AXCP, Müsavat kimi partiyalarda iki tərəf var. Məhkəmə çəkişmələri gedir. Sizcə, Ədliyyə Nazirliyi belə məqamlara hansı mövqedən yanaşmalıdır?***

- Ədliyyə Nazirliyi konkret vəziyyətdə siyasi partiyanın qeydə alınması ilə məşğuldur. Əgər həqiqətən iki tərəf varsa, biz də bunu görürük və bilirik ki, həm AXCP-də, həm də Müsavatda problemlər var. Narazı tərəflər məhkəməyə şikayət ediblər. Məhkəmənin qərarı nə olacaqsa, Ədliyyə Nazirliyi də ona müvafiq addım atacaqdır.

***- Sizcə, nəyə görə, müxalifət sivil müzakirələrdən qaçır?***

-Hər hansı bir ideya irəli sürəndə arxanda sosial bazan, gücün, ədalətin və istəyin ola. Yəni ancaq söyüş söyməklə və nəticəni gözləməməklə ideyalar irəli sürmək olmaz. Bu sivil mübarizə deyil. Müxalifət bu reallığı başa düşməlidir.

**GÜLYANƏ**

# "Milli Şura"nın nümayəndəsi müxalifət partiyalarını lağa qoydu

***Son günlər "Ağ Blok"un rəhbərliyi altında bir sıra müxalifət partiyaları- Böyük Azərbaycan Partiyası (BAP), Klassik Xalq Cəbhəsi Partiyası (KXCP), Azadlıq Partiyası, Gələcək Azərbaycan Partiyası (GAP), Milli Konqres Partiyası (MKP), Azərbaycan Liberal Demokrat Partiyası (ALDP), Azərbaycan Xalq Partiyası (AXP), Aydınlar Partiyası (AP), "Ümid" Partiyası, Dünyəvi Bozqurd Partiyası (DBP), Vətəndaş və İnkişaf Partiyası (VİP) bir masa ətrafında yığışaraq müzakirələr aparmaqdadırlar.***

Lakin müxalifət partiyalarının müzakirələrində nə AXCP, nə Müsavat, nə də "Milli Şura" iştirak edir. Maraqlıdır, adıçəkilən bu siyasi birliklər nə üçün müzakirələrə qatılmır? Axı daima AXCP və Müsavat tərəfindən müxalifətin "bir araya gəlməsinin vacibliyi" haqqındakı nağılların çox eşitmişik. Müsavat, AXCP və "Milli Şura" funksionerləri tez-tez iqtidarı dialoqa çağırırlar, hakimiyyət nümayəndələri ilə fərdi debatların təşkili məsələsini gündəmə gətirirlər. Çox maraqlıdır, öz aralarında bir masaya otura bilməyən, bir-birilərinə hörmət qoymayan, heç bir plan və konsepsiyaları bəlli olmayan partiyalarla iqtidar nə üçün dialoq keçirməlidir ki!? Bircə kəlmə üstündə- "ana müxalifət" terminə yiyələnməkdən ötrü AXCP və Müsavat arasında uzun illərdir ki, soyuq müharibə gedir. İsa Qəmbərin düşmənlərindən "Azadlıq" müsahibə alıb dərc edir, Əli Kərimlinin düşmənlərindən də "Yeni Müsavat" silsilə yazılar verir. Həmçinin 20 ildən artıq bir şəxsin partiya rəhbəri olması da adıçəkilən partiyalarda normal düşüncə tərzinin olmadığının göstəricisidir.

Qayıdaq əsas məsələyə. Bəs adıçəkilən müxalifət birlikləri nə üçün digər müxalifət partiyalarının keçirdikləri tədbirdə iştirak etmirlər? "Milli Şura"nın koordinasiya mərkəzinin üzvü Eldəniz Quliyev sərt şəkildə bildirib ki, bir masa ətrafında toplaşan partiyalarla heç bir işbirlikləri, ortaq hədəfləri ola bilməz: "Məncə, "Milli Şura"nın həqiqi dəyişiklik istəyindən daha çox, gündəmdə qalmaq məqsədi ilə təşkil olunmuş, eləcə də səmimiyyətdən daha uzaq, siyasi nihilizm nümayiş etdirilən hər hansı toplantılara qatılmaq niyyəti yoxdur". O zaman Eldəniz Quliyevə sual olunur: sizin hədəfinizlə yuxarıda adıçəkilən partiyaların hədəfləri arasında nə kimi fərq var? Onlar guya hakimiyyətə iddialıdırlar və bunu özləri də bəyan edirlər. Bəs sizin məqsədiniz nədir? Ola bilsin ki, "Milli Şura" da xarici dövlətlərin xüsusi xidmət orqanlarının Azərbaycandakı "korpusu" missiyasını yerinə yetirməyi hədəf seçib. Mənim bir masa ətrafına toplaşıb toplantı keçirənləri müdafiə etmək niyyətim yoxdur. Onsuz da xalq onları da tanıyır. Sadəcə, ortada görünən fakt budur ki, həqiqətən də Azərbaycanda normal müxalifətin yaradılmasını istəməyən AXCP, Müsavat və Eldəniz Quliyevin təmsil olunduğu "Milli Şura"dır.



Bir müddət öncə Müsavat funksioneri Gülağa Aslanlı da təmsil olunduğu partiyanın "Ağ Blok"un rəhbərliyi altında keçirilən toplantılara qatılmaq niyyətlərinin olmadığını bəyan etmişdi. Hətta jurnalistlərin "Tural Abbaslının təşəbbüsünü necə qiymətləndirirsiniz?" sualına təbəssümlə cavab verən Gülağa Aslanlı "gedin özündən soruşun" deməklə ironik cavab vermişdi.

Eldəniz Quliyevin və Gülağa Aslanlının fikirlərini şərh edən BAXCP funksioeri Xəzər Teyyublu isə bildirib ki, "Milli Şura" deyilən bir qurum qalmayıb: "Evlərində oturublar və utanmadan deyirlər ki, hansısa şura var. İmkan versinlər, normal tədbirlərimizi keçirək. Azərbaycanda güclü müxalifətin yaradılmasını əngəlləyən elə Müsavat və AXCP rəhbərləri olublar. İndi qısqanırlar ki, əksər müxalifət partiyaları bir araya gəliblər".

**Samir**

# İnsan hüquqlarına dair Azərbaycan öz öhdəliklərini tamamilə yerinə yetirən demokratik və hüquqi dövlətdir

***İnsan hüquqlarının və plüralist demokratiyanın müdafiəsi, Avropa mədəniyyətinə aid xüsusiyyətlərin inkişafı, üzv ölkələrdə siyasi, qanunvericilik və konstitusional islahatların həyata keçirilməsinə kömək göstərilməsi kimi məqsədlərin daşıyıcısına çevrilmiş Avropa Şurasına qanunun aliliyi prinsipini tanıyan, insan hüquq və azadlıqlarının tətbiqinə lazımi şərait yaradan dövlətlər üzv ola bilərlər. Təşkilatın gördüyü mühüm işlərdən biri də Avropa konvensiyalarının qəbul edilməsidir.***

Avropa Şurasına üzv olmaq istəyən dövlətlər Avropa Şurasının olduqca sərt tələblərinə cavab verməlidirlər. Buraya ölkə daxilində insan hüquqlarına riayət edilməsi, müstəqil məhkəmə sisteminin mövcud olması, insan hüquqları üzrə Avropa Konvensiyasına qoşulmaq və başqa şərtlər daxildir.

Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv olması istiqamətində mühüm işlər görülmüşdür. Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin 1996-cı il iyulun 8-də "Avropa Şurası ilə Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi tədbirləri haqqında", 1998-ci il yanvarın 20-də "Avropa Şurası ilə Azərbaycan Respubiikası arasında əməkdaşlığın dərinləşdirilməsi sahəsində tədbirlər haqqında", 1999-cu il may ayının 14-də "Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi və Azərbaycan Respublikasının Avropada mənafelərinin müdafiə edilməsi sahəsində tədbirlər haqqında" imzaladığı sərəncamlar ölkəmizin Avropa Şurasına qəbul edilməsi üçün səylərin artırılmasına və məqsədyönlü fəaliyyətə zəmin yaratmışdır.

Ötən dörd ildə Azərbaycan demokratik Qərbin bir hissəsi kimi, demokratik və hüquqi dövlət quruculuğunda, insan hüquq və azadlıqlarının adi həyat normasına çevrilməsində çox işlər görmüşdür. Ölkəmizdə çoxpartiyalı plüralist cəmiyyət formalaşmış, azad söz və mətbuat azadlığı gündəlik mühitimizin ayrılmaz hissəsinə çevrilmişdir. 1995-ci il Konstitusiyası ilə təsbit edilmiş hakimiyyətin üç qolunun müstəqil fəaliyyəti daha da möhkəmlənmişdir. Cəmiyyətin bütün sahələrinin fəaliyyətinin hüquqi tənzimlənməsi üçün parlament tərəfindən Avropa Şurası qarşısında götürülmüş öhdəliklərə uyğun olaraq çoxsaylı qanunlar qəbul edilmiş, ölkəmiz bir sıra vacib beynəlxalq konvensiya və sazişlərə qoşulmuşdur. Bir çox qanunverici aktların beynəlxalq normalara uyğunlaşdırılması üçün gərgin iş aparılmışdır.

Ölkəmiz açıq cəmiyyət olduğunu siyasi sahə ilə yanaşı, iqtisadi sahədə də sübuta yetirmişdir. Sahibkarlığın inkişafı üçün bütün maneələr aradan götürülmüş, vergi və gömrük normaları xeyli liberallaşmışdır. Xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsi üçün hüquqi təminat sistemi yaradılmışdır.

İnsan hüquq və azadlıqlarının təmin edilməsi sahəsində də çox işlər görülmüşdür. Üzvlüyə qəbuldan ötən iki il ərzində ölkənin İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) təsisatı yaradılmış, bu barədə xüsusi olaraq Konstitusiya Qanunu qəbul edilmişdir. Azərbaycan Avropa İnsan Hüquqları Konvensiyasına qoşulmuş, hər bir vətəndaş lazım bildiyi halda Avropa Məhkəməsinə müraciət etmək hüququ əldə etmişdir.

Bir amnistiya qanunu 10 min nəfəri əhatə etmiş, 40-a yaxın əfv fərmanlarına görə isə beş minə qədər məhbus azadlığa buraxılmışdır. Mətbuat isə öz azadlıq göstəricilərinə görə bir çox Avropa ölkələrindən fərqlənmir.

Adil Vəliyev yazır: "Ölkədə 600-ə qədər qəzet, 100-ə yaxın jurnal, 30-dan çox müstəqil teleradio şirkəti fəaliyyət göstərir. "Kütləvi informasiya vasitələri haqqında" Qanuna edilən dəyişikliklər onların daha da müstəqil olmasına şərait yaratmışdır. İctimai Televiziyanın yaradılması üçün bütün lazımi hazırlıq işi görülmüş, Milli Teleradio Şurası yaradılmış, parlamentdə "İctimai Televiziya haqqında" Qanun qəbul edilmişdir. Mətbuata dövlət xətti ilə kredit verilməsinə başlanmış, bir sıra qəzet və jurnalların dövlət nəşriyyatına olan borcu əvvəl bir, sonra isə daha üç il müddətinə dondurulmuşdur".

Azərbaycanın demokratik cəmiyyət quruculuğundakı uğurların və istəklərinin məntiqi nəticəsi kimi 2002-ci il avqustun 24-də keçirilən ümumxalq referendumu Konstitusiyada bir sıra dəyişikliklərin edilməsinə gətirib çıxardı. Bu dəyişikliklər Konstitusiyanın qəbul edildiyi dövrdən bəri ölkəmizdə gedən proseslərdə əldə edilən nəticələri özündə əks etdirdi. Dəyişikliyə görə, insanın yaşamaq hüququ daha təminatlı edildi, parlamentin səlahiyyətləri genişləndirildi, vətəndaşlara Konstitusiya Məhkəməsinə müraciət etmək və digər hüquqlar verildi.

Azərbaycan Respublikası ilə Avropa Şurası arasında sıx əməkdaşlığın nəticəsi kimi ölkəmiz Avropa Şurası Parlament Assambleyasının 222 (2000) saylı Rəyinə müvafiq olaraq təşkilat qarşısında üzərinə götürdüyü öhdəlikləri vaxtında yerinə yetirir:

Bu günədək Azərbaycan Avropa Şurasının bir çox sənədinə (konvensiyalar, onların protokolları və digər sənədlər) qoşulmuş, bu da ölkəmizin Avropa hüquq məkanına inteqrasiyası üçün əsas yaratmışdır.

A.Vəliyevin fikrincə, insan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiya, qısaca olaraq Avropa İnsan Hüquqları Konvensiyası adlanır, 1950-ci il noyabrın 4-də, yəni Avropa Şurası təsis olunduqdan bir il sonra qəbul edilmiş və 1953-cü ilin sentyabrında qüvvəyə minmişdir. Konvensiyanın bugünkü mətni onun 11 saylı Protokolunun qüvvəyə mindiyi gündən - 1998-ci il noyabrın 1-dən qüvvədədir. Hazırda Avropa Şurasının bütün üzv dövlətləri, yəni 46 dövlət bu Konvensiyanın iştirakçısıdır.

Avropa İnsan Hüquqları Konvensiyasının Avropa Şurasının ən mühüm sənədi olduğunu və əslində, Avropa Şurasının bu konvensiyasız təsəvvür edilmədiyini nəzərə alaraq, təşkilata daxil olan hər bir yeni dövlətin və bu Konvensiyanı müəyyən müddət ərzində imzalamaq və təsdiq etmək məcburi vəzifə kimi qoyulur.

İnsan hüquqlarının müdafiəsində Avropa sisteminin tədqiqatçısı A.Robertson Konvensiyanın Avropa Şurasının mühüm nailiyyətini özündə əks etdirməklə beynəlxalq hüququn inkişafında mühüm mərhələ olması fikrini əsaslandırmaq üçün onun aşağıdakı xüsusiyyətini qeyd edirdi: "Konvensiyanın müddəalarına müvafiq olaraq iştirakçı dövlətlər onların yurisdiksiyasında olan şəxslərin İnsan Hüquqlarının Ümumi Bəyannaməsində elan edilmiş bir sıra hüquq və azadlıqlarını təmin etməyi öhdəsinə götürür. Həmin Konvensiyanın iştirakçısı olan dövlətlərin üzərinə götürdükləri öhdəliklərə riayət edilməsini təmin etmək üçün Avropa Komissiyası və Avropa İnsan Hüquqları Məhkəməsi yaradılmışdır. İnsan hüquqlarının pozulmasına görə şikayətlə komissiyaya təkcə dövlətlər müraciət etmir, həm də ayrı-ayrı şəxslər özlərinin hökumətlərindən bu cür şikayətlər vermək hüququna malikdir. Bir şərtlə ki, sonuncular bu yeni proseduru qəbul etmiş olsunlar". AŞ PA-nın Azərbaycanla bağlı 222 saylı Rəyində dövlətimizin üzərinə qoyulan öhdəliyə uyğun olaraq Azərbaycan Respublikasının Milli Məclisi Avropa İnsan Hüquqları Konvensiyasının və onun 1, 4, 6 və 7 saylı protokollarını ratifikasiya etmişdir.

Avropa İnsan Hüquqları Konvensiyası insan hüquqları sahəsində mövcud olan və Azərbaycan Respublikasının iştirak etdiyi bütün digər müqavilələrdən əsas etibarı ilə onunla fərqlənir ki, bu Konvensiya onda təsbit - olunmuş hüquq və azadlıqlarının təmin edilməsi üçün olduqca səmərəli bir hüquqi mexanizm nəzərdə tutur. Bu, fərdi şikayət mexanizmi və dövlətlərarası şikayət mexanizmidir. Bu mexanizmlərin məğzi ondan ibarətdir ki, Konvensiyada və ya protokollarda əks olunmuş hüquqlardan hər hansı birinin dövlət tərəfindən pozulduğunu güman edən hər bir şəxs, həmin dövlətdə mövcud olan bütün səmərəli hüquq-müdafiə vasitələrindən istifadə etdikdən sonra Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət edə bilər. Eyni zamanda, bir iştirakçı dövlət digər iştirakçı dövlətə qarşı onun, Konvensiyanın və ya protokolların müddəalarını pozması ilə bağlı məhkəmə qarşısında şikayət qaldıra bilər və qeyd edilməlidir ki, indiyə qədər xeyli sayda belə şikayətlər olmuşdur.

Avropa dövlətləri kollektiv nəzarət mexanizmi yaratmaqla ümumAvropa dəyərlərinə, hüququn aliliyinə, ədalət və demokratiyaya söykənən vahid hüquqi məkanda hər bir şəxsin hüquqlarının təmin etməyi öz qarşılarına başlıca vəzifə kimi qoymuşlar.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Dağlıq Qarabağ münaqişəsinin həllinə münasibətdə vəziyyətə gəlincə demək lazımdır ki, Azərbaycan ərazisinin iyirmi faizi erməni silahlı birləşmələrinin işğalı altında qalmaqdadır, bir milyon azərbaycanlı əvvəlki kimi qaçqın və köçkün vəziyyətində əzab çəkməkdədir.

Azərbaycanla Ermənistan arasında Dağlıq Qarabağ regionu üzrə həllini tapmamış on yeddi illik münaqişə öz neqativ təsirini təkcə Azərbaycana deyil, bütün Cənubi Qafqaz regionunun təhlükəsizliyinə və sabitliyinə göstərir, demokratik inkişafı ləngidir. 1993-cü ildə BMT Təhlüisizlik Şurasının Azərbaycanın ərazisindən işğalçı qüvvələrin qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul etməsinə, 1992-ci ildən başlayaraq ATƏT-in bilavasitə bu münaqişənin həlli naminə fəaliyyət göstərməsinə baxmayaraq, həmin qətnamə və qərarlar hələ ki, yerinə yetirilməyib.

1997-ci il aprel ayının 22-də Strasburqda, Avropa Şurası Parlament Assambleyasının yaz sessiyasında Zaqafqaziya münaqişələrinə dair 1119 (1997) saylı qətnamədə həmin prinsiplər öz ifadəsini tapmışdır.

Daxili qanunvericiliklə bağlı bütün layihələr Avropa Şurası ekspertlərinin, o cümlədən Venesiya Komissiyası mütəxəssislərinin rəy və tövsiyələri nəzərə alınmaqla hazırlanmış və bu əməkdaşlıq davam etdirilməkdədir.

2003-cü il oktyabrın 15-də keçirilmiş Azərbaycan Respublikasında prezident seçkiləri ilə əlaqədar 3 iyun 2003-cü il tarixdən Azərbaycan Respublikasının Seçki Məcəlləsi qüvvəyə minib.

Qəbul edilmiş bu məcəllənin əhəmiyyətindən söz açarkən, ilk növbədə qeyd olunmalıdır ki, Seçki Məcəlləsi Avropa Şurası ekspertlərinin iştirakı və tövsiyələri nəzərə alınmaqla, xüsusilə də Venesiya Komissiyası mütəxəssislərinin hazırladıqları və təklif etdikləri alternativ variantdan yararlanmaqla qəbul edilmişdir.

Ümumiyyətlə, hər bir xalqın öz iradəsini ifadə etməsinin ən mühüm forması dövlət hakimiyyəti və seçkili yerli özünüidarə orqanlarına demokratik, azad seçkilər, habelə dövlət həyatının ən mühüm problemlərinə dair öz fikrini ümumxalq səsverməsi - referendum yolu ilə bildirməsidir. Bütün dünyada seçkilər və referendumlar dövlətin və ictimai həyatın idarə olunmasında vətəndaşların ən kütləvi (çox vaxt yeganə) iştirak formasıdır.

İnsan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması, seçki ilə bağlı demokratik təsisatların inkişafı hüquqi dövlətin əsas məqsəd və vəzifələrindən biridir. Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə əldə edilmiş ən mühüm nailiyyətlərdən biri ictimai-siyasi sabitlikdir.

Dövlət vətəndaşların seçki və referendumlarda öz iradələrini sərbəst surətdə bildirmələrinə demokratik prinsipləri və seçki hüquqi normalarını müdafiə etmək yolu ilə təminat verir.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

Səs

Son səhifə 5 fevral

## Ömrüboyu şərab içən 107 yaşlı şəxs öldü

İspaniyada yaşayan bir şəxs ömrünün çox hissəsini su əvəzinə şərab içib. Xarici KİV-lər xəbər verir ki, bu məlumatı mərhumun oğlu Manuel Dokompo Lopes verib. Məlumata görə, şərabla yaşayan Antonio Dokampo Qarena 107 yaşında vəfat edib. Onun oğlu Lopes qeyd edib ki, atası ancaq öz şərablarından istifadə edib və hər yemək vaxtı 1.5 litrə qədər şərab qəbul edib. Lopes bildirib ki, atasının şəraba sevgisi sonsuz idi. O, əgər ildə 60 min litr şərab hazırlayırdısa, onun 3 min litrini şəxsi istifadəsi üçün ayırırdı. Uzunömürlü adam ilk dəfə antibiotikləri 103 yaşından sonra qəbul edib.



## "Xərçəngəm" deyərək, 400 min pul yığdı

Amerikada süd vəzi xərçəngi səbəbi ilə xərçəng xəstəlikləri ilə mübarizə fondundan 400 min dollar alan qadının onkoloji xəstə olmadığı ortaya çıxıb. Tracy Dart adlı qadın xərçəng olduğunu açıqladıqdan sonra "Komen" cəmiyyəti onun üçün maddi yardım toplamağa başlayıb. Pul yığılması üçün kampaniyalarda iştirak edən qadının xəstə olmadığı ortaya çıxdıqda isə polis axtarışa başlayıb. Tracy Dartın ailəsi isə onun böyrəyində problemlər olduğu üçün həkimə getdiyini, xərçəng xəstəliyi ilə bağlı heç bir məlumatları olmadıqlarını açıqlayıb. "Saxta xəstə" haqqında xəstəxanada da heç bir məlumat olmadığından ona yardım toplayan kampaniyanın üzvləri də sosial şəbəkədə açılan hesabı bağlayıblar. Dartın xəstəlik adı ilə pul qazanmağa çalışdığı düşünülür. 400 min dollar həcmində maddi yardım toplayan qadının hazırda harada olduğu haqda məlumat yoxdur.








## AFFA Canni İnfantinonun namizədliyini dəstəkləyir

Xəbər verdiyimiz kimi, FİFA-nın Seçki Komissiyası prezident vəzifəsinə irəli sürülən beş namizədi təsdiq edib. AZƏRTAC xəbər verir ki, namizədlərdən biri UEFA-nın hazırkı baş katibi Canni İnfantinodur. UEFA-da işlədiyi on beş il ərzində (altı il UEFA-nın baş katibi qismində) C.İnfantino böyük təcrübə toplayıb və hazırda Avropa futbol ailəsinin ən nüfuzlu mütəxəssislərindən sayılır. 2016-cı il yanvarın 19-da Canni İnfantino seçkiqabağı proqramını ictimaiyyətə təqdim edib. Proqram 3 hissədən - islahat və effektiv idarəetmə, demokratiya və yardım, futbolun inkişafından ibarətdir. Qeyd olunan proqramla C.İnfantino dünya futbolunun yaxın illərdə inkişafı haqqında baxışlarını və ideyalarını bölüşüb. UEFA-nın üzvü olan milli assosiasiyaların əksəriyyəti, həmçinin başqa konfederasiyaları təmsil edən bəzi federasiyalar C.İnfantinoya öz dəstəklərini bildiriblər. AFFA Canni İnfantinonun FİFA prezidentliyinə namizədliyini dəstəklədiyini bəyan edir.

## Millimizin futbolçusu rəsmən "Cordoba"da



Futbol üzrə Azərbaycan milli komandasının üzvü Eddi İsrafilovun yeni klubunda təqdimatı keçirilib. Onun komanda üçün vacibliyi qeyd olunub və oyunçumuza 11 nömrəli forma təqdim edilib. Hücuma meylli yarımmüdafiəçi mövqeyində çıxış edəcək E.İsrafilov İspaniya mətbuatına bildirib ki, o yeni komandasına "La Liga"ya yüksəlməkdə yardım etmək istəyir. Klubun idman direktoru Emilio Vega isə öz növbəsində futbolçunun komanda üçün əhəmiyyətindən danışıb. O qeyd edib ki, Eddi İsrafilovun Azərbaycan milli komandasındakı çıxışları ilə bağlı da heç bir problem olmayacaq.

## Messi qollarının sayını 501-ə çatdırıb



"Barselona" futbol klubu və Argentina yığmasının hücumçusu Lionel Messi qollarının sayını artırmaqda davam edir. AZƏRTAC "Marca" qəzetinə istinadla xəbər verir ki, artıq argentinalı ulduz karyerası ərzində vurduğu qolların sayını 501-ə çatdırıb. Bu, İspaniya kubokunun yarımfinal mərhələsində "Valensiya" ilə oynanılan ilk qarşılaşmada baş verib. Komandasının 7:0 hesablı qələbə qazandığı görüşdə Messi habelə het-trik müəllifi olub. Bununla 28 yaşlı forvard karyerası ərzində vurduğu qolların sayını 501-ə çatdırıb. Qeyd edək ki, "Qızıl top" mükafatının beşqat qalibi bu qollardan 436-na "Barselona"nın, 65-nə isə Argentina yığmasının heyətində imza atıb.

## Futzal millimiz italyanlara uduzdu

Azərbaycan milli komandası futzal üzrə Avropa çempionatının final mərhələsində ilk oyununda İtaliya yığması ilə qarşılaşıb. Serbiyanın paytaxtındakı "Belqrad Arena"da keçirilən matçda millimiz 3-0 hesabı ilə məğlub olub. Oyunda iki dəfə Aleks Merlim, bir dəfə isə Daniel Giasson fərqlənib. Matçı Marc Birkett (İngiltərə), Oleq İvanov (Ukrayna) və Kamil Çetindən (Türkiyə) ibarət hakimlər briqadası idarə edib. Komandamız ikinci oyununu fevralın 5-də Çexiya yığmasına qarşı keçirəcək.

## "Zidan indi "Real"da xoşbəxtdir"



Fransa Futbol Federasiyasının prezidenti Noel Le Qre "Real"ın baş məşqçisi Zinəddin Zidan barədə danışıb. Goal.az xəbər verir ki, fransalı futbol funksioneri bunları deyib: "Fikrimcə, Zidan asan yol seçməyib. Amma uduzlara rəhbərlik etmək bəzən asan ola bilər. Təxminən 3-4 il əvvəl ona məsləhət gördüm ki, "Bordeaux"da işləyib təcrübə toplasın. Amma Zidan hiss edirdi ki, nə vaxtsa "Real"ı çalışdırmaq imkanı qazanacaq. Hesab edirəm ki, düz qərar verib. İndi "Real"da xoşbəxtdir".

## "Lokomotiv" "Telekom"a qalib gəlib

Fevralın 3-də qadın voleybol komandaları arasında Azərbaycan Super Liqası yarışlarının XI turu çərçivəsində bir oyun keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Voleybol Mərkəzində "Lokomotiv" komandası "Telekom" klubu ilə qarşılaşıb. Görüş Çempionlar Liqası yarışlarında mübarizə aparan təmsilçimiz "Lokomotiv" komandasının 3:0 hesablı qələbəsi ilə yekunlaşıb. Hesabında 27 xal olan "Azərreyl" turnir cədvəlinin birinci pilləsinə yer alıb.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız:Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi,32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

*Buraxılışa məsul: Mətləb Salahov*
Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**